QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 027 (5499) 10 **fevral** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Xalq gələcəyini alternativi olmayan Prezident İlham Əliyev siyasətində görür

*İlham Əliyev: “Sizi və bütün Azərbaycan xalqını əmin etmək istəyirəm ki, əgər prezident seçkilərində Azərbaycan xalqı mənə yenidən yüksək etimad göstərərsə, doğma xalqıma ləyaqətlə xidmət edəcəyəm”*




Səh 3


“Azərbaycanın idman sahəsində yaxşı nəticələri var”



2

YAP tərəfindən Azərbaycan prezidentliyinə namizəd İlham Əliyevin namizədliyinin qeydə alınması üçün sənədlər MSK-ya təqdim edilib



4

Əli Əhmədov İran səfirini qəbul edib



4

Naxçıvanda sahibkarlarla görüş keçirilib



8

Azərbaycanın yaradıcılıq təşkilatları öz seçimlərini ediblər



5

MSK-nın üzvü: “İlham Əliyev demokratik seçkilərin keçirilməsində tələbkardır”



10

12

Əli Kərimlinin trolları özlərini bu cür ifşa edirlər



6

Rövzət Qasımov: “MSK araşdırmalar aparır”



16

Naxçıvanlı idmançılar 8 medal qazanıblar



# "Azərbaycanın idman sahəsində yaxşı nəticələri var"

*Futbol üzrə dünya çempionatının Kubokunun əsli Prezident İlham Əliyevə təqdim edilib*



Futbol üzrə dünya çempionatı ərəfəsində dünya turnesi çərçivəsində çempionatın Kubokunun əsli FIFA-Coca-Cola və AFFA tərəfindən Azərbaycana gətirilib. AZƏRTAC xəbər verir ki, fevralın 9-da kubok Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim olunub. Kubok futbol üzrə dünya çempionatı Kubokunun sahibi, Fransa yığma komandasının keçmiş oyunçusu, dünya futbol əfsanələrindən sayılan Kristian Karambo tərəfindən təqdim edilib.

Görüşdə çıxış edən Kristian Karambo deyib: "Azərbaycanda olmaq mənim üçün həqiqətən də şərəfdir. Sizin gözəl şəhəriniz var. Sizin həmişə idmana dəstək verdiyinizi bilirəm və buna görə Sizə minnətdarıq. Bizi qəbul etdiyinizə görə Sizə bir daha təşəkkür edirik. Cənab Prezident, bu Kubok Sizə təqdim olunur, siz buna layiqsiniz".

Əfsanəvi futbolçu Kristian Karambo dünya çempionatının Kubokunun əslini Prezident İlham Əliyevə təqdim etdi.

Azərbaycan Prezidenti İlham Əliyev:

-Çox sağ olun. Mən FIFA-ya, şəxsən sizə, sizin həmkarlarınıza bu tarixi Kuboku Azərbaycan xalqına, azərbaycanlı azarkeşlərə təqdim etmək məqsədilə Bakıya gəlişiniz üçün minnətdaram. Biz Azərbaycanın və Bakının turnenin keçirildiyi ölkə və şəhərlərdən biri kimi seçilməsindən qürur duyuruq. Bu, bizim üçün həqiqətən də böyük şərəfdir. Bu gün bu, böyük bir hadisə olacaq və mən əminəm ki, azarkeşlər bu Kuboka baxmaqdan çox məmnun olacaqlar. Mən sizin icazənizlə bu kuboka toxundum. Mən bilirəm ki, Kuboka yalnız çempionlar və dövlət başçıları toxuna bilərlər. Əminəm ki, tariximizdə ilk dəfə qeyd etdiyimiz bu əlamətdar hadisə futbolumuzda, oyunçularımızda daha da böyük həvəs oyadacaq, dünyada bu ən məşhur idman növünün Azərbaycanda inkişafına kömək edəcək. Biz futbolun, idmanın inkişafına kömək etməyə çalışırıq. Azərbaycanın idman sahəsində yaxşı nəticələri var. Keçmiş Rio Olimpiya Oyunlarında Azərbaycan yığması ümumi medal sayına görə dünyada 14-cü yeri tutmuşdur. Biz iki mötəbər beynəlxalq idman yarışına - Avropa Oyunlarına və İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etmişik və bu oyunlarda komandamız medal sayına görə müvafiq olaraq ikinci və birinci yerləri tutmuşdur. Biz Bakıda futbol üzrə Avroliqanın finalına və futbol üzrə Avropa çempionatının dörddəbir finalına və bir neçə qrup oyunlarına ev sahibliyi etməyi səbirsizliklə gözləyirik. Biz artıq mötəbər beynəlxalq, Avropa idman və futbol yarışlarına ev sahibliyi edəcək dünya ölkələrinin birinə çevrilirik. Əlbəttə ki, bunu biz dostluq və FIFA-ya hörmət əlaməti hesab edirik. Sizdən bizim qonağımız olmuş FIFA-nın prezidenti cənab İnfantinoya salamlarımı çatdırmağı xahiş edirəm. Biz hamımız bu tarixi günü xatırlayacağıq.






x x x

Sonra FIFA prezidenti Canni İnfantinonun ənənəsinə uyğun olaraq FIFA-nın rəsmi nümayəndəsi xatirə hədiyyəsini Prezident İlham Əliyevə təqdim etdi. AFFA-nın baş katibi Elxan Məmmədov Prezident İlham Əliyevə məlumat verdi ki, futbol üzrə dünya çempionatının Kuboku xüsusi təyyarədə yeniyetmə azərbaycanlı futbolçuların müşayiəti ilə Bakıya gətirilib. Hətta uşaqlar təyyarədə Kristian Karambo ilə topla oynayıblar. Dünya çempionatının kuboku yerli azarkeşlərin görməsi üçün "Gənclik Mall"da nümayiş etdirilir. Sonda xatirə şəkilləri çəkdirildi.

## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan İlahiyyat İnstitutunun yaradılması haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Qobustan Rayon Mərkəzi Xəstəxanasının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Aleksandr Şarovskinin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Aleksandr Yakovleviç Şarovski "Şərəf" ordeni ilə təltif edilsin.

* * *

Prezident İlham Əliyev İlqar Abbasovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə İlqar Namaz oğlu Abbasov 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

# Xalq gələcəyini alternativi olmayan Prezident İlham Əliyev siyasətində görür

*İlham Əliyev: "Sizi və bütün Azərbaycan xalqını əmin etmək istəyirəm ki, əgər prezident seçkilərində Azərbaycan xalqı mənə yenidən yüksək etimad göstərərsə, doğma xalqıma ləyaqətlə xidmət edəcəyəm"*




Azərbaycanın ictimai-siyasi həyatında əhəmiyyətli hadisə olan Yeni Azərbaycan Partiyasının VI Qurultayı ölkəmizin sabitlik və inkişaf dövrünü yaşayan bir dövründə keçirildi. Əsas ideoloji dayaqları müstəqillik, azərbaycançılıq, sosial inkişaf, siyasi və iqtisadi islahatlar olan YAP-ın mövcud olduğu dövrdə ölkəmiz sürətli inkişafa nail olub. Öz tarixinin ən güclü, ən qüdrətli dövrünü yaşayan Azərbaycan müasir dünyamızda elə bir etibarlı imic qazanıb ki, bu prosesdə YAP-ın böyük rolu müstəsnadır. YAP-ın mütəşəkkil fəaliyyəti, öz liderinə sədaqəti nəticəsində, ölkəmiz bütün sahələrdə daha böyük nailiyyətlər qazanır.

Dövlətimizin siyasi sisteminin sütunu olan YAP ölkəmizdə siyasi islahatların aparılmasında mühüm rol oynayır. Yeni Azərbaycan Partiyasının VI Qurultayında çıxış edən Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyev ölkəmizin ictimai-siyasi həyatında həlledici rol oynayan partiyanın qərarlarının Azərbaycanın inkişafına töhfə verdiyini bildirib. Ötən ilin noyabrında partiyanın 25 illik yubileyinin qeyd edildiyini bildirən dövlət başçısı, bu illər ərzində, partiyanın uğurlu və şərəfli yol keçdiyini qurultay iştirakçılarının diqqətə çatdırıb: "Əgər o vaxt bu partiyamız yaradılmasaydı, bilmək olmazdı ki, ölkə hansı istiqamətdə inkişaf edəcəkdi. Çünki o vaxt ölkəmizin qarşısında çox ciddi problemlər durmuşdu. Demək olar ki, Azərbaycan, onun gənc müstəqilliyi təhlükə altında idi".

1992-ci ildə yaradılan YAP-ın tarixi hadisəyə çevrildiyini vurğulayan Cənab Prezident bir neçə aydan sonra xalqın istəyi və tələbi ilə Heydər Əliyevin yenidən hakimiyyətə gəldiyini və ölkəmizin inkişaf yoluna qədəm qoyduğunu bildirib: "AXC-Müsavat cütlüyü tərəfindən başlanmış vətəndaş müharibəsi dayandırıldı, qanunsuz silahlı birləşmələr tərk-silah edildi, qayda-qanun yaradıldı, milli vətəndaş həmrəyliyi üçün əsas yaradıldı, azərbaycançılıq ideologiyası bəyan edildi və bu gün də bizim əsas ideoloji dayağımızdır. Ölkə konstitusiyası qəbul edildi, iqtisadiyyatda, siyasi sahədə ciddi islahatlara start verildi, Azərbaycan beynəlxalq təcriddən çıxa bildi və ölkə ilə bağlı həqiqətlər dünya birliyinə çatdırıldı".

1993-cü ildən ölkədə aparılan işlər, görülən tədbirlər bugünkü reallıqları təmin edir. "1993-cü ildən başlayaraq, Azərbaycan uğurlu inkişaf yolu ilə gedir və inkişaf üçün əsas şərt - sabitlik tam bərqərar olmuşdur" - deyən Cənab Prezident bildirib ki, sabitlik olmadan heç bir inkişafdan söhbət gedə bilməz: "Məhz o illərdə - Ulu Öndər hakimiyyətə gələndən bir il sonra "Əsrin Kontraktı" imzalanmışdır. Bu, bu gün də və gələcək illərdə də ölkə iqtisadiyyatı üçün müstəsna rol oynayan kontraktdır. Keçən ilin sentyabrında Ulu Öndərin adını daşıyan bu möhtəşəm Heydər Əliyev Mərkəzində kontraktın 2050-ci ilə qədər uzadılması haqqında qərar verildi. Görün, bu kontraktın nə qədər böyük əhəmiyyəti var ki, artıq yarım əsrdən çox müddətdə Azərbaycan xalqına xidmət edəcəkdir".

## "BİZİM SİYASƏTİMİZİN MƏRKƏZİNDƏ AZƏRBAYCAN VƏTƏNDAŞI, ONUN PROBLEMLƏRİ, ONUN QAYĞILARI, ONUN RİFAHI DAYANIR"

Ulu Öndərin quruculuq və inkişaf xəttinin davamçısı olan Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirməklə, ölkəmizi sabitlik və inkişafın, vətəndaş həmrəyliyinin təmin olunduğu güclü dövlətə çevirib. Azərbaycan Prezidenti Cənab İlham Əliyev hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində qeyd etmişdi ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, mən Heydər Əliyev siyasətini davam etdirəcəyəm. Bu, belə də oldu. Cənab Prezidentin "Şadam ki, Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşir və ölkəmiz uğurla inkişaf edir", -deməsi çox böyük əsaslara söykənir. 2003-cü ildən bu günə qədər keçən dövr Azərbaycana sürətli inkişaf mərhələsini yaşamış və Azərbaycan dünyada analoqu olmayan iqtisadi templərlə inkişaf etmişdir. Ölkə qarşısında duran bütün vəzifələr icra edilmişdir, 2003-cü ildə və ondan sonrakı illərdə verilmiş bütün vədlər həyatda öz əksini tapmışdır. Bu gün Azərbaycan yeni iqtisadi və sosial çağırışların, nüfuzlu beynəlxalq qurumların tədbirlərinin keçirilməsi üçün əsas məkan kimi tanınır, dünyaya özünü demokratik ənənələrə sadiq, hüquqi və sosial dövlət kimi təqdim edir. Ölkəmizin bütün sahələrdə böyük uğurlar qazanması, maliyyə imkanlarının artması, ölkəmizin transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısı kimi çıxış etməsi, müasir tələblərə cavab verən infrastrukturun yaradılması və s. Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini getdikcə daha da möhkəmləndirir. Azərbaycan Prezidentinin əməli fəaliyyətinin, iradəsinin nəticəsidir ki, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib, iri enerji layihələr və qlobal əhəmiyyətli iqtisadi zonalar yaradılıb. İqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın azaldılması və sənayeləşmə prosesinə nail olunub. Bütün bu və ya digər amillər son 14 ilin məntiqi nəticəsidir. "Bizim son illər apardığımız siyasət özünü tam doğrultdu, Azərbaycanda sabitlik mövcuddur" - deyən Azərbaycan Prezidenti son 5-6 il ərzində dünyanın müxtəlif yerlərində, bizim regionumuzda çox ciddi, narahatedici proseslər getdiyini diqqətə çatdırıb və bildirib ki, belə olan halda, sabitlik pozulduqda heç bir inkişafdan söhbət gedə bilməz: "Bu gün dağılmış vəziyyətdə olan və daxili inteqrasiyanı tamamilə itirən ölkələrin gələcək taleyi böyük sual altındadır. Ona görə həyat və yaxın tarixin mənzərəsi göstərir ki, sabitlik əsas amildir və sabitlik necə təmin edilməlidir? Ancaq düzgün siyasətlə. O siyasət ki, onun mərkəzində xalq dayanır və ölkə vətəndaşı dayanır. Biz məhz bu siyasəti aparırıq. Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır".

## "BİZ ÇALIŞMALIYIQ Kİ, DÜNYANIN DEMOKRATİK BAXIMDAN ƏN İNKİŞAF ETMİŞ ÖLKƏLƏRİNİN STANDARTLARINA YAXINLAŞAQ VƏ BUNU EDƏCƏYİK"

Həyata keçirilən layihələr və islahatlar Azərbaycanın gələcək inkişafına yönəlsə də, hələ qarşıda daha böyük nailiyyətlər Azərbaycanı gözləyir. Qurultayda Cənab Prezident çıxışında Azərbaycanı gələcəkdə daha da güclü dövlətə çevirmək üçün görüləcək işləri də diqqətə çatdırıb: "Gələcək illərdə də demokratik inkişafla bağlı yeni addımlar atılacaqdır, siyasi islahatlar davam etdiriləcəkdir. Son illər ərzində bu istiqamətdə gözəl nəticələr əldə edilib və bu, daimi prosesdir. Biz çalışmalıyıq ki, dünyanın demokratik baxımdan ən inkişaf etmiş ölkələrinin standartlarına yaxınlaşaq və bunu edəcəyik".

Son 14 ildə Azərbaycan beynəlxalq aləmdə yüksək zirvələri fəth edib, ölkəmiz BMT TŞ-nin üzvü olub. "Bizim bütün ölkələrlə qarşılıqlı hörmət və biri-birinin işinə qarışmamaq şərti ilə münasibətlərimiz qurulub" - deyən Prezident gələcəkdə bu münasibətləri daha möhkəmləndirərək, qonşu dövlətlərlə əlaqələrimizin daha da yüksək pilləyə qalxacağını qeyd edib: "Mən buna əminəm. Çünki hazırda başladığımız və davam etdirdiyimiz iqtisadi və digər layihələr bunu deməyə əsas verir". Gələcəkdə məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması və mənzillərlə, evlərlə təmin edilməsi, nəhəng enerji layihələrini icrası və sistiqamətində, bundan sonra da uğurlu siyasət aparılacağını diqqətə çatdıran Cənab Prezident "bütün planlarımızı həyata keçirmək üçün iqtisadiyyatımızı gücləndirməliyik", - deyib.

Göründüyü kimi, 2003-cü ildən keçən müddət müasir tariximizə ölkənin iqtisadi, sosial, siyasi və mədəni inkişafının dönüş nöqtəsi kimi daxil olub. Bu illər ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən islahatlar nəticəsində, Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkəsi kimi tanınıb. Azərbaycan xalqı öz gələcəyini Azərbaycanda alternativi olmayan İlham Əliyev siyasətində görür və Onu dəstəkləyir. Yeni Azərbaycan Partiyasının VI Qurultayında İlham Əliyevin namizədliyinin irəli sürülməsi haqqında qərar yekdilliklə qəbul olunub. Seçicilər aprel ayının 11-də hər Cənab İlham Əliyevə səs verməklə növbəti 7 il ərzində Azərbaycanın inkişafına, tərəqqisinə, yüksəlişinə, sabitliyinə və əmin-amanlığına səs vermiş olacaqlar.

Prezident İlham Əliyev Ona göstərilən etimada görə, səmimi minnətdarlıq hissini ifadə edib: "Sizi və bütün Azərbaycan xalqını əmin etmək istəyirəm ki, əgər prezident seçkilərində Azərbaycan xalqı mənə yenidən yüksək etimad göstərərsə, doğma xalqıma ləyaqətlə xidmət edəcəyəm".

**Nəzakət ƏLƏDDİNQIZI**

# Əli Əhmədov İran səfirini qəbul edib



Fevralın 9-da Nazirlər Kabinetində Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov İran İslam Respublikasının ölkəmizdə fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadəni qəbul edib. SİA-nın məlumatına görə, Əli Əhmədov Azərbaycan dövlətinin həyata keçirdiyi xarici siyasətin prioritetinin dünyanın bütün ölkələri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaq və inkişaf etdirmək olduğunu və bu əlaqələrdən yararlanaraq həm respublikamızın beynəlxalq aləmdə mövqelərini möhkəmləndirmək, həm də ölkə iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirməyə nail olmağı qarşıya hədəf qoyduğunu qeyd edib.

Baş nazirin müavini yaxın qonşularımızdan olan İran İslam Respublikası ilə münasibətlərin yaxşılaşdırılmasının, əlaqələrin genişləndirilməsinin və əməkdaşlığın daha da möhkəmləndirilməsinin ölkəmiz üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

İran İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadə səmimi qəbul üçün təşəkkürünü bildirib, münasibətlərimizin təməlində tarixi əlaqələrin, ortaq mədəniyyətin dayandığını, bunun da inkişafda olan bugünkü əlaqələrimizin rəmzi olduğunu deyib. Səfir iki ölkə arasında dostluq və əməkdaşlığın bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcəyinə əminliyini ifadə edib. Qonaq fürsətdən istifadə edərək Yeni Azərbaycan Partiyasının möhtəşəm 6-cı Qurultayı ilə bağlı təbriklərini də çatdırıb.

# YAP tərəfindən Azərbaycan prezidentliyinə namizəd İlham Əliyevin namizədliyinin qeydə alınması üçün sənədlər MSK-ya təqdim edilib

*Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin Azərbaycan Respublikasının prezidentliyinə namizədliyinin qeydə alınması üçün tələb edilən sənədlər Seçki Məcəlləsinin tələblərinə müvafiq olaraq tərtib edilərək Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına təqdim edilib.*



Bu barədə AZƏRTAC-a Yeni Azərbaycan Partiyasından məlumat verilib. Xatırladaq ki, fevralın 8-də Yeni Azərbaycan Partiyasının VI qurultayı keçirilib. Qurultayda 2018-ci il aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Respublikasının prezidentliyinə namizədliyinin irəli sürülməsi barədə yekdilliklə qərar qəbul edilib.

# Eldar İbrahimov: "Azərbaycanda İlham Əliyevin alternativi yoxdur"

"Ötən gün Yeni Azərbaycan Partiyasının VI Qurultayı çox yüksək səviyyədə keçirildi. Qurultayda təkcə partiya üzvlərinin deyil, bütün xalqın istəyi reallaşdı, Prezident İlham Əliyevin namizədliyi irəli sürüldü". Bu fikirləri SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov deyib. Azərbaycan xalqının Prezidentinə böyük, sevgi və məhəbbətinin olduğunu deyən YAP idarə heyətinin üzvü bildirib ki, ölkəmizə sabitik, sülh, əmin-amanlıq, eləcə də inkişaf Dövlət başçısının həyata keçirdiyi uğurlu siyasət nəticəsində əldə olunub.



E.İbrahimov söyləyib ki, Azərbaycanın gündən-günə inkişaf etməsi göz qarşısındadır: "Artıq bütün dünyanın gözü ölkəmizin artan inkişafındadır. Bunun nəticəsidir ki, ölkəmizə maraq artıb və Azərbaycan bir sıra mühüm layihələrin əsas iştirakçısına çevrilib. Bildiyiniz kimi neqativ amillər dünya iqtisadiyyatına öz təsirini göstərir. Lakin Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində bütün neqativ halların qarşısı peşəkarlıqla alınır və iqtisadiyyatımız davamlı inkişaf edir".

Azərbaycan Prezidenti ölkəmizin inkişafı istiqamətində bütün sahələrə diqqət yetirir: "Görülən işlərin nəticəsidir ki, ölkəmizdə yüzlərlə məktəblər tikilib, təmir olunub, xəstəxanalar müasir standartlara uyğun olaraq avadanlıqlarla təchiz olunub, körpülər salınıb, ölkəmizin infrastrukturu tamamilə yenilənib". Ölkəmizdə regionlarımızın sosial iqtisadi inkişafı ilə bağlı görülən işlərdən söz açan komitə sədri söyləyib ki, 2004-cü ildən bu günə qədər Azərbaycan bölgələrinin inkişafı tarixi nailiyyətdir. Bu gün Azərbaycan bölgələrində lazım olan bütün infrastruktur layihələri icra edilib və biz sürətli inkişaf dövrünü yaşayırıq. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbulu və qarşıya qoyulan vəzifələrin uğurlu icrası sayəsində respublikamızın bütün bölgələrinin siması tamamilə dəyişmiş, kənd yolları asfatlaşdırılmış, rayonların ucqar kəndləri belə qazlaşdırılıb, yaşayış məntəqələri içməli su ilə təmin olunub, rabitə sistemi yüksək səviyyədə qurulub və demək olar ki, şəhərlə kənd arasındakı fərq aradan qaldırılıb. Regionlarda ən müasir tələblərə cavab verən yeni iş yerlərinin açılması, qeyri-neft sektorunun inkişafı, daha çox valyuta gətirən strateji əhəmiyyətli kənd təsərrüfatı məhsullarının istehsalının artırılması üçün bütün imkanlardan istifadə edilməsi əhalinin məşğulluğunu daha da artırıb".

# AVCİYA prezident seçkiləri öncəsi monitorinqlər və seminarlar keçirəcək

***Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) seçki qərargahı aprelin 11-də ölkəmizdə keçiriləcək prezident seçkilərinin daha demokratik və şəffaf təşkilinə dəstək məqsədilə müşahidə missiyası həyata keçirir. Artıq fevralın 5-dən uzunmüddətli müşahidə missiyasına başlamışıq. AZƏRTAC xəbər verir ki, bu sözləri AVCİYA-nın vitse-prezidenti Elçin Salmanov fevralın 9-da keçirilən mətbuat konfransında deyib.***




AVCİYA-nın müşahidə missiyası barədə məlumat verən E.Salmanov bildirib ki, Assosiasiya Mərkəzi Seçki Komissiyasına (MSK) müraciətləri, imzatoplama kampaniyası və qeydə alınma proseduru, seçici siyahıları, seçki prosesi ilə bağlı qanun pozuntuları, seçki ilə bağlı şikayətləri və qanunverici baza, seçki ərəfəsində ölkədəki ictimai-siyasi vəziyyət, MSK, Dairə və Məntəqə Seçki komissiyalarının fəaliyyəti, seçkilərlə bağlı KİV-in monitorinqi, təşviqat kampaniyası və seçki gününün monitorinqinin təşkili kimi genişmiqyaslı fəaliyyətə start verib. Qanunvericilik bazası, seçkilər ərəfəsində ölkədə ictimai-siyasi vəziyyətlə bağlı monitorinqlər aparılacaq və nəticələr barədə hesabatlar veriləcək. "Bu missiya çərçivəsində yalnız seçkilər günü seçkilərin monitorinqi aparılmayacaq. KİV-in fəaliyyəti, Mərkəzi Seçki Komissiyasının seçki komissiyalarının müşahidəsi və digər məsələlər həyata keçiriləcək", - deyə E.Salmanov əlavə edib.

Qurumun seçki qərargahının rəhbəri Məhərrəm Zülfüqarlı deyib ki, uzunmüddətli müşahidə ilə bağlı aralıq hesabat aprelin 6-da ictimaiyyətə təqdim ediləcək. Seçkilər günü müşahidə və seçkilərin nəticələrinə dair ilkin münasibət isə aprelin 12-də səhər saatlarında elan olunacaq. Tam yekun hesabatın da aprelin 26-da geniş ictimaiyyətə təqdim ediləcəyi gözlənilir. Gələn həftədən AVCİYA Şirvan, Salyan, Hacıqabul və Sabirabad rayonlarında ilk seminarlara və treninqlərə başlayacaq. Seminarların məqsədi yerlərdə müşahidəçiləri maarifləndirmək və demokratik, şəffaf seçkilərə dəstək verməkdir.

M.Zülfüqarlı, eyni zamanda, seçki qərargahının rayon əlaqələndiricilərinin attestasiyasının, regional ofislərinin işinin prezident seçkilərinə uyğunlaşdırılmasının da tamamlandığını bildirib. O deyib ki, hətta seçicilərin fəallığının artırılması ilə bağlı fevralın 16-dan aprelin 10-dək regionlarda seminarlar və müşahidəçilər üçün treninqlər keçiriləcək. Yaxın günlərdə isə müşahidəçilərə kömək məqsədilə "Yaddaş kitabçası" nəşr olunacaq.

Vurğulanıb ki, seçki qərargahı əvvəlki seçkilərdə olduğu kimi, demokratik seçkilər sahəsində mövcud beynəlxalq təcrübənin təbliğinə önəm verir, eləcə də beynəlxalq qurumlarla əməkdaşlığa da müsbət yanaşır. M.Zülfüqarlının sözlərinə görə, KİV-in monitorinqi müxtəlif yönümlü 8 qəzeti və 2 agentliyi əhatə edir.

# Azərbaycanın yaradıcılıq təşkilatları öz seçimlərini ediblər



***Fevralın 9-da M.Moqamayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında ölkədəki yaradıcılıq təşkilatlarının rəhbərləri və üzvləri qarşıdan gələn prezident seçkiləri ilə bağlı toplantı keçiriblər.***

AZƏRTAC xəbər verir ki, ölkə ziyalıları 2018-ci il aprelin 11-də keçiriləcək prezident seçkilərində İlham Əliyevin namizədliyinin irəli sürülməsi haqqında bəyanat qəbul ediblər. Toplantıda ziyalılar ölkə həyatında son illərdə görülən işlərdən danışıb, yaradıcı insanlar üçün yaradılan şəraiti yüksək qiymətləndiriblər. Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri, Xalq Yazıçısı Anar ölkə ziyalılarının aprelin 11-də keçiriləcək prezident seçkilərində İlham Əliyevin namizədliyini dəstəkləyəcəklərini deyib.

Dövlətimizin başçısı İlham Əliyevin prezidentliyi dövründə ölkənin ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni inkişafı ilə bağlı gördüyü işlərdən danışan Xalq Yazıçısı Prezidentin Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında Sərəncamının əhəmiyyətini xüsusi vurğulayıb. Prezident İlham Əliyevin mədəniyyətimizə, incəsənətimizə sonsuz qayğısından, gənc və yaşlı yazıçılara diqqətindən, AYB-in 80 illik yubileyinin yüksək səviyyədə keçirilməsinə yaradılan şəraitdən danışan yazıçı Anar deyib ki, bütün bunlar ölkəmizin inkişafı, xalqımızın uğurlu gələcəyi naminə qarşıdakı seçkilərdə ulu öndər Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevə səs verməyə əsas yaradır. İnanırıq ki, qarşıdakı illərdə İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtidarı bütün problemlərin öhdəsindən gələcək və ölkəmizi daha da irəliyə aparacaq.

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq Artisti, professor Firəngiz Əlizadə 1979-cu ildə Bəstəkarlar İttifaqının V qurultayında ulu öndər Heydər Əliyevin nitqində səsləndirdiyi müdrik fikirləri bu gün də həyata keçirməyə çalışdıqlarını bildirərək vurğulayıb ki, Ümummilli Liderin siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir, yaradıcı insanlara dəstək verir.

Qürurverici faktdır ki, Azərbaycanın muğam ifaçılıq sənəti, aşıq sənəti, Novruz bayramı, xalça, tar ifaçılıq sənəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib. Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin xalqımızın mədəni irsinin qorunmasına göstərdiyi yüksək diqqət və qayğının, həmçinin ölkəmizin qeyri-maddi mədəni sərvətlərinin beynəlxalq səviyyədə təşviqi məqsədilə Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın təşəbbüsləri və dəstəyi ilə həyata keçirilən silsilə tədbirlər nəticəsində mümkün olub.

İl ərzində keçiriləcək tədbirlərdən danışan Firəngiz Əlizadə deyib: "Müstəqil Azərbaycanı artıq hamı tanıyır. Biz bu gün ruh yüksəkliyi ilə tədbirlərə hazırlaşırıq. Bunlar sabit ölkədə yaşadığımıza görə mümkün olur. Bu şəraiti bizə yaradan dövlətimizin başçısıdır. Biz qarşıdan gələn prezident seçkilərində İlham Əliyevin namizədliyini dəstəkləyirik".



Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq Rəssamı Fərhad Xəlilov illər ərzində dövlətimizin başçısının ölkəmizin inkişafı, təbliği, Azərbaycanın dünya siyasi sistemində layiqli yer tutması, xalqımızın firavan, sabitlik şəraitində yaşaması üçün gördüyü işlərdən danışıb, bu gün təkcə Bakının deyil, regionlarımızın da sürətlə inkişaf etdiyini, gözəlləşdiyini, ölkəmizin beynəlxalq idman və mədəniyyət tədbirlərinin keçirildiyi mərkəzə çevrildiyini vurğulayıb.

"Bu gün Azərbaycan təkcə sənət yox, həm də idman, sənaye mərkəzinə çevrilib. Dünyanın hər yerindən insanlar buraya gəlir və buradakı inkişafdan zövq alırlar. Hazırda 50-dən çox rəssam Prezident təqaüdü alır. Belə dövlət qayğısı, belə sürətli inkişaf harada var?! Bütün bunlar deməyə əsas verir ki, rəssamlar Prezident İlham Əliyevin siyasətini dəstəkləyirlər və onun namizədliyinə səs verəcəklər", - deyə Fərhad Xəlilov vurğulayıb.

Ölkəmizdə memarlıq sənətinin yüksəliş dövrünü yaşadığını bildirən Azərbaycan Memarlar İttifaqı idarə heyətinin sədri, professor Elbay Qasımzadə deyib ki, bu gün müasir Bakının siması xarici qonaqlarda müsbət mənada həm təəccüb, həm də heyrət hissi doğurur. Bakıya gələn memarlar buradakı inkişafı xüsusi qeyd edirlər. Ölkəmizin iqtisadi və maliyyə durumu memarlığın inkişafına zəmin yaradır. Kasıb ölkədə memarlıq inkişaf edə bilməz. Ona görə ki, memarlıq çox böyük vəsait tələb edən sahədir. Görülən işlər, yeni üslubda inşa edilən binalar ölkəmizdə bu sahənin sürətli inkişafından xəbər verir. "Biz yaradıcı insanlar qarşıdan gələn prezident seçkilərində bu inkişafın memarı olan İlham Əliyevə səs verəcəyik. Xahiş edirəm, toplantının qərarında yazılsın ki, memarlar da İlham Əliyevin prezidentliyə namizədliyini dəstəkləyirlər", - deyə E.Qasımzadə əlavə edib.

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri, Xalq Artisti Şəfiqə Məmmədova 1969-cu ildə Ulu Öndərin ilk dəfə hakimiyyətə gəlməsi ilə Azərbaycan kinosunun inkişaf dövrünə qədəm qoyduğunu söyləyib. Bildirib ki, bu siyasi xətt hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Görülən işlər, qəbul olunan Dövlət proqramları bütün sahələrdə olduğu kimi, kinematoqrafiya sahəsində də böyük dönüş yaradıb. Məhz bunun nəticəsidir ki, gənc rejissorlar yeni-yeni ekran əsərləri çəkir, filmlərimiz beynəlxalq festivallarda uğurla nümayiş olunur. Hər il ölkəmizdə 2 avqust - Milli Kino Günü kimi qeyd edilir. Hazırda kino haqqında yeni qanun hazırlanır.

Dövlətimizin başçısının müvafiq Sərəncamı ilə qeyd ediləcək Azərbaycan kinosunun 120 illiyi ilə bağlı görüləcək işlərdən söz açan Xalq Artisti bildirib ki, bütün bunlar Prezident İlham Əliyevin ölkəmizdə kino sənətinin inkişafına verdiyi dəyərin bariz nümunəsidir: "Bu gün kinematoqrafların bir namizədi var, o da İlham Əliyevdir. Biz yekdilliklə ona səs verəcəyik, ona sadiq və hər zaman da onunlayıq".

Teatr Xadimləri İttifaqının sədri, Xalq Artisti Azərpaşa Nemətov ölkəmizdə teatr sənətinin inkişafı naminə dövlətimizin başçısının gördüyü işləri xüsusi qeyd edib. Bildirib ki, bu il Azərbaycan teatrı yaranmasının 145-ci ildönümünü qeyd edəcək. Azərbaycan teatr sənəti qədim və zəngin tarixi yol keçib. 2006-cı ildə "Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Bu qədim yaradıcılıq sahəsinin çağdaş inkişaf mərhələsini əks etdirən Qanunda dövlətin teatr sənətinə xüsusi əhəmiyyət verməsi rəsmən bəyan edilib. 2007-ci ildə Prezident İlham Əliyev teatr sənəti ilə bağlı daha bir mühüm sənəd - "Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında" Sərəncam imzalayıb. 2009-cu il mayın 18-də isə dövlətimizin başçısı "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramını təsdiq edib.

Dövlət Proqramı çərçivəsində görülən işlərdən, yenidən qurulan və təmir olunaraq istifadəyə verilən teatr binalarından və yüzlərlə sənət adamına verilən fəxri adlardan, təqaüdlərdən söz açan Teatr Xadimləri İttifaqının sədri deyib: "Bizim də bir namizədimiz var, o da İlham Əliyevdir".

Bu gün Azərbaycan ziyalılarının toplaşdıqları Dövlət Filarmoniyasında Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov kimi mədəniyyət xadimlərinin ruhunun olduğunu deyən Musiqi Xadimləri İttifaqının sədri, Xalq Artisti Fərhad Bədəlbəyli ulu öndər Heydər Əliyevin də bu zalda konsertləri izlədiyini, mədəniyyət xadimləri ilə görüşdüyünü, onlara hər zaman qayğı ilə yanaşdığını diqqətə çatdırıb. Fərhad Bədəlbəyli Ulu Öndərin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin də bu ənənəyə sadiq qaldığını vurğulayıb.

Musiqi Xadimləri İttifaqının sədri deyib ki, Azərbaycanın güclü ordusu var, amma mədəniyyətimiz də böyük bir ordudur. Bu ordudan heç zaman diqqət və qayğısını əsirgəməyən Prezidentimizlə həmişə fəxr etmişik. Bütün bunlara görə prezident seçkilərində İlham Əliyevin namizədliyini dəstəkləyəcəyik.

Aşıqlar Birliyinin sədri, Əməkdar Elm Xadimi, professor Məhərrəm Qasımlı Azərbaycan Prezidentinin beynəlxalq aləmdəki nüfuzundan danışıb, onun türk dünyasının mövqeyini qətiyyətlə müdafiə edən bir siyasi xadim olduğunu vurğulayıb, bu gün aşıq sənətinin inkişafına göstərilən xüsusi diqqəti qeyd edərək deyib: "Azərbaycan dövlətinin böyük sənət ordusu var. Bu ordunun daxilində olan aşıqlar da İlham Əliyevin namizədliyini dəstəkləyir".

Tədbirdə Yazıçılar Birliyinin katibi, Xalq Yazıçısı Çingiz Abdullayev Ulu Öndərin yazıçılara münasibətini xatırladıb, bu gün Prezident İlham Əliyevin yazıçılar üçün ölkədə yaratdığı şəraiti yüksək qiymətləndirib. Toplantıda Xalq artistləri Amaliya Pənahova, Hacı İsmayılov, Afaq Bəşirqızı apreldə keçiriləcək prezident seçkilərində İlham Əliyevin namizədliyinə səs verəcəklərini bildiriblər.

Sonra Yazıçılar İttifaqının sədri Anar yaradıcılıq təşkilatlarının bəyanatını səsləndirib. Bəyanat toplantıda iştirak edən təşkilatların nümayəndələri tərəfindən imzalanıb.

Bəyanatda vurğulanır ki, Azərbaycan ziyalıları ulu öndər Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin namizədliyini bu seçkilərdə də dəstəkləyəcəklər. Bildirilir ki, onun rəhbərliyi ilə Azərbaycan Respublikası qarşıdakı illərdə daha böyük nailiyyətlərə imza atacaq, müstəqil dövlətimizin beynəlxalq aləmdə nüfuzu daha da artacaq.



# Azərbaycan Milli Paralimpiya Komitəsi prezident seçkiləri ilə əlaqədar ölkə ictimaiyyətinə müraciət edib

Azərbaycan Milli Paralimpiya Komitəsi Azərbaycan Respublikası Prezidentinin seçkiləri ilə əlaqədar ölkə ictimaiyyətinə müraciət edib.

Milli Paralimpiya Komitəsindən AZƏRTAC-a daxil olan müraciətdə deyilir ki, Azərbaycanda Paralimpiya hərəkatının yaranması ümummilli lider Heydər Əliyevin hakimiyyəti illərinə təsadüf edir. Böyük fəxarətlə demək olar ki, Ulu Öndərin ümumilikdə idmana verdiyi dəyər, göstərdiyi diqqət və qayğı bu gün ölkə başçısı, Milli Olimpiya Komitəsinin prezidenti, paralimpiyaçıların dostu İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz bunun nəticəsidir ki, Azərbaycanın adı dünyanın aparıcı idman ölkələrinin sırasında çəkilir.

Ölkəmizdə fiziki məhdudiyyətli şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların sağlamlıqlarının bərpa olunmasında, fiziki inkişafında, cəmiyyətə inteqrasiyasında, ölkəmizin idman şərəfinin beynəlxalq aləmdə daha da uca zirvələrə qaldırılmasında Milli Paralimpiya Komitəsinin fəaliyyəti təqdirəlayiqdir. Dünyada ilk dəfə olaraq Milli Paralimpiya Komitəsinin nəzdində Uşaq Paralimpiya Komitəsinin ölkəmizdə yaradılması ehtiyat idmançıların hazırlanması ilə yanaşı, sağlamlıq imkanları məhdud uşaqların abilitasiya və reabilitasiya yolu ilə cəmiyyətə inteqrasiya olunmalarına güclü təkan verəcək.

Azərbaycan Milli Paralimpiya Komitəsi öz fəaliyyətini genişləndirir, idman növlərinin və idmançıların sayı ildən-ilə artır, bölgələrdə Paralimpiya hərəkatı sürətlə inkişaf edir. Bunun nəticəsidir ki, Milli Paralimpiya Komitəsi fəaliyyəti dövründə 7 Yay Paralimpiya Oyunlarında iştirak edib. Oyunlarda iştirak edən idmançılar yüksək nəticələr göstərərək 38 medal qazanıblar ki, onlardan 9-u qızıl, 18-i gümüş və 11-i bürünc medallardır. İdmançılar arasında 7 Paralimpiya çempionu var ki, onlardan iki nəfəri ikiqat Paralimpiya çempionudur. Bundan əlavə, idmançılardan 7 nəfəri dünya, 14 nəfəri Avropa çempionu, 7 nəfər Dünya Oyunlarının, 12 nəfər İslam Həmrəyliyi Oyunlarının və 1 nəfər Avropa Oyunlarının qalibləridir. Paralimpiyaçılarımızın beynəlxalq arenalarda, mötəbər yarışlarda göstərdikləri şücaətə, nail olduqları uğurlara nəzər salsaq görərik ki, uğurların əldə olunması üçün böyük zaman və zəhmət sərf edilib. Lakin sağlamlıq məhdudiyyətlərinə qalib gələrək, idman yolunda olan çətinliklərə sinə gərərək onlar böyük ruh yüksəkliyi ilə bayrağımızı daim ucalarda saxlamağa nail olublar. Qeyd edilən nailiyyətlər yalnız və yalnız ölkə başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin adı ilə bağlıdır və onun bədən tərbiyəsi və idmana göstərdiyi diqqət və qayğının təzahürüdür. Müraciətdə qeyd edilir ki, məlum olduğu kimi, 2018-ci il aprelin 11-də Azərbaycanda prezident seçkiləri keçiriləcək. Yeni Azərbaycan Partiyasının VI qurultayı prezident seçkilərində partiyanın sədri İlham Əliyevin namizədliyinin irəli sürülməsi barədə qərar qəbul edib. Paralimpiyaçılar da prezident seçkilərində öz ənənəsinə sadiq qalaraq İlham Əliyevin namizədliyini dəstəkləyir və ölkə ictimaiyyətini də seçkilərdə fəallıq göstərərək ona səs verməyə çağırır. Müraciət Milli Paralimpiya Komitəsinin 9 fevral tarixli iclasında qəbul edilib.

## Rövzət Qasımov: “MSK araşdırmalar aparır”



“2018-ci il aprel ayının 11-də Azərbaycan Respublikasında prezident seçkiləri keçiriləcək. Bununla bağlı Mərkəzi Seçki Komissiyası (MSK) özünün Fəaliyyət və Təqvim Planını təqdim edib. Həmçinin MSK-nın maarifləndirmə ilə bağlı da genişmiqyaslı proqramı olur ki, həmin proqram da bir sıra geniş layihələri əhatə edir”. Bunu SİA-ya açıqlamasında Mərkəzi Seçki Komissiyası (MSK) Katibliyinin rəhbəri Rövzət Qasımov deyib.

MSK rəsmisinin sözlərinə görə, bu layihələr də müxtəlif seçki iştirakçılarının maarifləndirilməsinə yönəlib: “Belə ki, burada polis nəfərlərinin, aşağı seçki komissiyası üzvlərinin, eyni zamanda seçkilərdə bu və ya digər şəkildə iştirak edən müxtəlif şəxslərin maarifləndirilməsi əsas prioritet olaraq qəbul olunur. Ümid edirik ki, bu, müvafiq qurumlarla həmin layihələr zamanında həyata keçiriləcək. Onu da qeyd etmək istərdim ki, aşağı seçki komissiyalarının hazırlıq məsələsi ilə bağlı da addımlar atılır. Belə ki, biz hər bir seçki ili ilin əvvəlindən aşağı seçki komissiyalarının hazırlıq vəziyyətinin monitorinqini həyata keçiririk. Bu il də məhz bu monitorinq həyata keçirilib və araşdırmalar aparılır. Yerlərdən toplanmış məlumatlar, müşahidə olunmuş hallar əsasında görüləcək tədbirlərin də siyahısı müəyyənləşdirilib. Artıq MSK bununla bağlı lazımi addımları atır”.

# Azərbaycanda turizm sektorunun inkişafı Prezident İlham Əliyevin adı ilə bağlıdır






Azərbaycanda iqtisadiyyatın ən gəlirli sahələrindən olan turizmin inkişafı son illərdə diqqət mərkəzindədir və bu sahədə böyük uğurlar əldə edilib. Turizmin inkişafı üçün lazım olan bütün infrastruktur yaradılıb. Ölkəmizdə turizm sektorunun inkişafı Prezident İlham Əliyevin adı ilə bağlıdır. Dövlətimizin başçısının səyləri nəticəsində Azərbaycan dünyanın cəlbedici turizm ölkələrindən birinə çevrilib.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Turizm Assosiasiyasının aprelin 11-də ölkəmizdə keçiriləcək prezident seçkilərinə dəstəklə bağlı tədbirində səsləndirilib.

Assosiasiyanın sədri Nahid Bağırov qeyd edib ki, Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsinə yönələn strategiyanın mühüm istiqamətlərindən biri də turizmin inkişafıdır. Bu da dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatların nəticəsidir. Bu gün Azərbaycan dünyada təhlükəsiz, sabit ölkə kimi tanınır. Ölkəmizdə turizm sahəsinin inkişafı üçün qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə “Turizm haqqında” yeni qanun layihəsi, həmçinin 2016-2025-ci illər üçün Azərbaycanda turizmin inkişaf strategiyası hazırlanıb. Azərbaycan Turizm Assosiasiyası, Konqreslər Bürosu, Sağlamlıq və Termal Turizm Assosiasiyası, Yaşıl Kənd Turizm Assosiasiyası və digər turizm qurumları ölkəmizdə turizmin inkişafında mühüm rol oynayır. Paytaxt Bakı da daxil olmaqla, ölkəmizin əksər regionlarında turizmin müxtəlif növlərini, o cümlədən biznes, istirahət, sağlamlıq, idman turizmini inkişaf etdirmək üçün hər cür imkan var. Respublikamızda turizmin perspektiv inkişaf strategiyasında da ölkənin bütün regionlarının bu sahədəki potensialından səmərəli şəkildə istifadə etmək nəzərdə tutulub.

Qeyd edilib ki, Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı turizmin də inkişafına təkan verəcək. Qatar turizminin inkişafı böyük İpək Yolunun inkişafında yeni mərhələ olacaq. Yaxın gələcəkdə dəniz turizmi də inkişaf edəcək, kruizlər fəaliyyətə başlayacaq. Xəzər dənizinin potensialından maksimum istifadə imkanları var. Bu, eyni zamanda, Xəzər dənizi sahili ölkələri ilə turizm əlaqələrini canlandıracaq və sıx iqtisadi münasibətlər yaradacaq.

Diqqətə çatdırılıb ki, Azərbaycanda turizm sahəsində kadrların hazırlanmasına böyük önəm verilir. Dövlətin diqqəti və qayğısı sayəsində 2006-cı ildən Azərbaycan Turizm və Menecment Universiteti fəaliyyət göstərir. Bir sıra ali təhsil ocaqlarının müvafiq fakültələrində turizm kafedraları var. Bakı şəhərində Turizm Peşə Məktəbi, Qəbələ və İsmayıllı şəhərlərində Turizm Peşə Məktəbi və Liseyi, Mingəçevir şəhərində Turizm Kolleci fəaliyyət göstərir.

Turizm Assosiasiyasının sədri Azərbaycanda kütləvi turizmin inkişafı üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işləri qeyd edib. O, ölkəmizə daha çox turist cəlb etmək üçün sadələşdirilmiş viza prosedurunun həyata keçirildiyini diqqətə çatdırıb. Vurğulayıb ki, dövlətimizin başçısının diqqət və qayğısı sayəsində bu gün turizm iqtisadiyyatımızın aparıcı sahəsinə çevrilib. Azərbaycanda turizmin hələ böyük inkişaf potensialı var və bu potensialın üzə çıxarılması və həyata keçirilməsi dövlətin dəstəyi olmadan mümkün deyil. Nahid Bağırov turizm ictimaiyyətinin bütün nümayəndələrini prezident seçkilərində fəal iştirak etməyə və Azərbaycan turizminin inkişafında yorulmaz fəaliyyətini davam etdirməsi üçün Prezident İlham Əliyevi dəstəkləməyə çağırıb.

# Yeni Azərbaycan Partiyası İlham Əliyevin prezidentliyə namizədliyini rəsmi şəkildə irəli sürməklə xalqın mövqeyini ifadə etdi



## YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Məlahət İbrahimqızının yap.org.az-a müsahibəsi

***- Məlahət xanım, fevralın 8-də Yeni Azərbaycan Partiyasının VI Qurultayı keçirildi. Qurultayda aprelin 11-də keçiriləcək növbədənkənar prezident seçkilərində partiyamızın Sədri, cənab İlham Əliyevin namizədliyi irəli sürülüb. Azərbaycan cəmiyyətində Qurultayın bu qərarı çox yüksək qiymətləndirilir. Bu barədə nə deyə bilərsiniz?***

- Partiyamızın bu qərarı əslində, ümumxalq mövqeyinin ifadəsidir. Çünki Prezident İlham Əliyevin uğurlu fəaliyyəti birmənalı olaraq xalqımız tərəfindən dəstəklənir. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub.

Prezident İlham Əliyev dövlət başçısı kimi Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasi kursu müasir dövrün çağırışlarına uyğun daha da inkişaf etdirərək uğurla həyata keçirir. Bu illər ərzində ölkəmiz həm iqtisadi, həm siyasi, həm də beynəlxalq sahələrdə böyük nailiyyətlər qazanıb. Azərbaycanda aparılan davamlı və uzunmüddətli iqtisadi islahatlar nəticəsində ölkəmiz iqtisadi inkişaf sürətinə görə dünyanın lider dövlətləri ilə bir sırada dayanır. 2011-ci ildə Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının üzvü seçilməsi gənc ölkə üçün müstəsna əhəmiyyət kəsb edir. Azərbaycan həm də kosmos ölkələri sırasındadır ki, bu uğura da hər bir dövlət nail ola bilməyib.

Əlbəttə ki, cənab Prezidentin həyata keçirdiyi siyasətin uğurlarını xalqımız görür və yüksək qiymətləndirir. Ona görə də, ümumxalq partiyası olan YAP özünün VI qurultayında cənab İlham Əliyevin prezidentliyə namizədliyini rəsmi şəkildə irəli sürməklə xalqın mövqeyini ifadə etdi. Əminəm ki, aprelin 11-də azad və demokratik prezident seçkiləri nəticəsində növbəti dəfə cənab İlham Əliyevin parlaq qələbəsini qeyd edəcəyik.

***- Qazanılan nailiyyətlərdən söz düşmüşkən, 2003-cü ildən etibarən ölkəmiz sosial-iqtisadi inkişaf baxımından ciddi uğurlar qazanıb. Sizcə, bu uğurların kökündə hansı amillər dayanır?***

- Ötən illərdə möhkəm daxili sabitliyi ilə fərqlənən Azərbaycanda ölkəyə gələn böyük həcmlərdə neft gəlirləri məqsədyönlü şəkildə milli mənafe baxımından strateji önəm daşıyan prioritet sahələrə, o cümlədən də neftdənkənar iqtisadiyyat üzrə yeni proqramların reallaşdırılmasına yönəldilib. Ümumiyyətlə, respublikamız Prezident İlham Əliyevin möhkəm siyasi qətiyyəti sayəsində elə bir uğurlu iqtisadi inkişaf modeli seçib ki, burada neft amili heç də həlledici, dominant rol oynamır, əksinə ağırlıq mərkəzi, çəkici qüvvə tədricən qeyri-neft sektoruna keçir. Həyata keçirilən məqsədyönlü siyasət sayəsində respublikamızda buraxılan ümumi daxili məhsulda qeyri-neft sektorunun xüsusi çəkisi 80 faizədək artıb ki, bu da böyük nailiyyətdir.

Azərbaycanın regionlarının sosial-iqtisadi inkişafı ciddi konseptual əsaslara söykənir və Prezident İlham Əliyevin fərmanları ilə təsdiqlənərək 2004-cü ildən bəri böyük uğurla reallaşdırılan müvafiq Dövlət proqramlarında nəzərdə tutulan konkret hədəflərə istiqamətləndirilib. Qeyd edim ki, Azərbaycanın regionlarının sosial-iqtisadi inkişafı ilə bağlı beşillik Dövlət proqramlarının qəbul edilməsi təşəbbüsünü Prezident İlham Əliyev hələ 2003-cü ildə seçicilərlə görüşlərində irəli sürüb. Praqmatik siyasətçi olan İlham Əliyev xalqın inamını qazanaraq Prezident seçildikdən sonra Öz vədinə sadiq qaldı. İndiyədək respublikamızda Prezident İlham Əliyevin müvafiq fərmanları ilə təsdiqlənən regionların sosial-iqtisadi inkişafına dair 2004-2008 və 2009-2013-cü illəri əhatə edən iki Dövlət Proqramı uğurla reallaşdırılıb. Əvvəlki illərdə yaradılan möhkəm baza və qazanılan təcrübə 2014-2018-ci illəri əhatə edən sayca üçüncü Dövlət Proqramının qəbul edilməsi üçün möhkəm əsas olub. Hazırda üçüncü Dövlət Proqramı da böyük müvəffəqiyyətlə yerinə yetirilir.

Ölkəmizdə rasional iqtisadi inkişaf ölkə vətəndaşlarının mənafeyinə yönələn güclü sosial siyasətlə tamamlanır. Azərbaycanın dövlət başçısının nümayiş etdirdiyi güclü siyasi iradə sayəsində respublikamızda yoxsulluğun tamamilə aradan qaldırılması istiqamətində davamlı tədbirlər həyata keçirilir. Çox qısa müddətdə yoxsulluğun 50 faizdən 5 faizədək azaldılması böyük nailiyyətdir. Eyni zamanda, son 14 ildə respublika üzrə təxminən 1,9 milyon yeni iş yerinin yaradılması insanların sosial vəziyyətinin yaxşılaşmasında mühüm faktor qismində çıxış edir. Hazırda Azərbaycanda yoxsulluq qlobal yoxsulluq səviyyəsindən 3 dəfə aşağıdır. Ölkəmiz insan inkişafı indeksini MDB dövlətləri üzrə ən yüksək səviyyəyə çatdırıb, BMT-nin İnkişaf Proqramının hesabatında "yüksək insan inkişafı" ölkələri qrupunda yer alıb.

Ölkədə Prezident İlham Əliyevin müəyyənləşdirdiyi siyasi xəttə əsasən əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə davamlı tədbirlər görülür. Bu baxımdan ölkə əhalisinin ən həssas hissəsi olan qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə göstərilən dövlət dəstəyi xüsusilə diqqətəlayiqdir.

***- Azərbaycan beynəlxalq arenada güclü və nüfuzlu dövlət kimi tanınır. Bu faktı şərtləndirən amillər nədən ibarətdir?***

- Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan yüksək beynəlxalq nüfuza malik olan aktora çevrilib. Avrasiyanın mühüm geostrateji məntəqələrindən biri olan Cənubi Qafqazın lider dövləti olan Azərbaycan öz çoxşaxəli və balanslaşdırılmış xarici siyasət kursu ilə regional və beynəlxalq əməkdaşlığa, təhlükəsizliyə müstəsna töhfələr verir. Eyni zamanda, regional işbirliyi formatlarının yaranmasında Azərbaycanın yeri və rolu müstəsna əhəmiyyət kəsb edir. Ölkəmiz hazırda regionda sabitləşdirici aktor kimi çıxış edir.

Digər tərəfdən, öz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürən Azərbaycan beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim etməkdədir. Bütün bunların müqabilində ayrı-ayrı milli dövlətlər, o cümlədən dünya siyasətinin güc mərkəzləri kimi çıxış edən geopolitik subyektlər Azərbaycanın beynəlxalq münasibətlər sistemində fəal rolunu, praqmatik xarici siyasət kursunu yüksək qiymətləndirirlər. Bununla yanaşı, Cənubi Qafqazın təhlükəsizlik qarantı olan Azərbaycan beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi çıxış edir.

Bu baxımdan, Azərbaycanın mötəbər beynəlxalq tədbirlərin keçirildiyi məkan kimi önəmi vurğulanmalıdır. Bilirsiniz ki, ötən illər ərzində ölkəmizdə siyasi, iqtisadi, humanitar, mədəni və idman xarakterli beynəlxalq tədbirlər keçirilib. Bunların sırasında Humanitar Forumları, sivilizasiyalar arasında dialoqa xidmət edən tədbirlər və s. qeyd etmək olar. Eləcə də, ölkəmizdə "Eurovision-2012", Birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Formula - 1 yarışları kimi, bütün dünyanın diqqət mərkəzində olan mühüm mədəniyyət və idman tədbirləri keçirilib. Təbii ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlər, Azərbaycan xalqının və dövlətinin mənafeyinin ən yüksək səviyyədə qorunmasına yönəlmiş qlobal fəaliyyət hər bir azərbaycanlı tərəfindən yüksək qiymətləndirilir və cənab Prezidentin yorulmaz fəaliyyəti xalqımızın bütün təbəqələri tərəfindən dəstəklənir. Bu prosesdə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, UNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müstəsna xidmətləri var.

***- Azərbaycan həmçinin, bir sıra qlobal layihələrin müəllifi və iştirakçısıdır. Bu faktor ölkəmizə nə kimi dividendlər qazandırır?***

- Bəli, Azərbaycan qısa müstəqillik tarixində regionda bir sıra qlobal əhəmiyyət daşıyan layihələrin təşəbbüskarı və müəllifi rolunda çıxış edib. Bu sırada enerji layihələrini xüsusi qeyd etmək lazımdır. "Əsrin kontraktı" layihəsi çərçivəsində bütün öhdəliklər yüksək səviyyədə yerinə yetirilir, həmçinin Bakı-Supsa, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Ceyhan kəmərləri uğurla istismar olunur.

"Əsrin kontraktı" ilə təməli qoyulan yeni neft strategiyasının son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi sayəsində Azərbaycan özünün enerji təhlükəsizliyini tam təmin edib, eyni zamanda, Avropanın enerji təhlükəsizliyinə sanballı töhfələr verən etibarlı tərəfdaşa çevrilib.

Ötən il sentyabrın 14-də isə müstəqil Azərbaycanın həyatında daha bir əlamətdar hadisə baş verdi. Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması mərasimi keçirildi. Bu Sazişin imzalanması ilə böyük ehtiyatlara malik "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənilməsində yeni mərhələ başlayıb.

Hazırda Azərbaycanın fəal iştirakı ilə daha bir qlobal enerji layihəsi - "Cənub Qaz Dəhlizi" icra olunur. Resurs mənbəyi Xəzərin Azərbaycan sektorundakı zəngin "Şahdəniz" yatağı olan "Cənub Qaz Dəhlizi" 6 ölkədən keçməklə Avropa İttifaqı ölkələrinədək uzanacaq. "Cənub Qaz Dəhlizi" layihəsi dörd hissədən ibarətdir. Buraya "Şahdəniz" yatağının işlənməsi, genişləndirilmiş Cənubi Qafqaz boru kəməri, Trans-Anadolu (TANAP) və Transadriatik (TAP) boru kəmərləri daxildir.

Eləcə də, bu sıraya qlobal nəqliyyat layihələrini də əlavə edə bilərik. Ötən ilin oktyabr ayında Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verildi. Bu layihənin də önəmi barədə hər kəs bilir. Hazırda Şimal-Cənub nəqliyyat dəhlizinin reallaşdırılması prosesi gedir ki, bu layihə də ölkəmizə həm iqtisadi, həm də siyasi dividentlər qazandıracaq.

Bütövlükdə, uğurlu enerji və nəqliyyat siyasəti həm regional inkişaf və əməkdaşlığa müstəsna töhfələr verir, həm də Azərbaycanın mövqeyinin güclənməsini şərtləndirir.

***- Məlahət xanım, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində qətiyyətli mövqe nümayiş etdirir. Prosesin hazırkı vəziyyəti barədə fikirlərini bilmək istərdik...***

- Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü xarici siyasət kursunun mühüm strateji istiqamətlərindən birini də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında - ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsi təşkil edir. Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, ədalətli həllinə nail olmaq məqsədilə qlobal səviyyədə genişmiqyaslı iş aparır, beynəlxalq təşkilatlarla əməkdaşlığı genişləndirir. Müəyyən müddətdir ki, davam edən danışıqlar prosesində ölkəmiz nəinki öz həqiqətlərini dünyaya çatdıra bilib, həm də siyasi, diplomatik sahədə işğalçı Ermənistan üzərində aşkar üstünlüyə nail olub. Digər sahələrdə olduğu kimi, ölkənin ərazi bütövlüyü məsələsində də respublika rəhbərliyinin qətiyyətli və birmənalı mövqe sərgiləməsi bəzi xarici ermənipərəst qüvvələrin müxtəlif qərəzli niyyətlərini dəfələrlə iflasa uğradıb.

Münaqişənin ədalətli həlli üçün beynəlxalq birlik, o cümlədən ATƏT-in Minsk Qrupunun həmsədrləri ədalətli mövqe tutmalıdırlar. Çünki işğalçı Ermənistana təzyiqlər olmadığı üçün münaqişənin həlli uzanır. Azərbaycan xalqı inanır ki, Prezident İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində torpaqlarımız işğaldan azad olunacaq.

# Naxçıvanda sahibkarlarla görüş keçirilib








***Fevralın 9-da Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüşü olub.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbirdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov çıxış edərək deyib ki, həyata keçirilən tədbirlər muxtar respublikanın iqtisadi potensialın artmasına, biznes və investisiya mühitinin yaxşılaşdırılmasına şərait yaradıb. Ümumi daxili məhsulun həcmi artaraq 2017-ci ildə 2 milyard 701 milyon 663 min manat təşkil edib. Sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradılıb, muxtar respublikada dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 60 layihə üzrə istehsal və xidmət obyektləri fəaliyyətə başlayıb. Kiçik və orta sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətinə çevrilib. Rayon və kənd yerlərində kiçik həcmli təsərrüfatların yaradılması və fəaliyyətinin təşviqi tədbirləri ötən müddətdə də davam etdirilib, fərdi müəssisə və təsərrüfatların sayı 714-ə çatdırılıb. Əhalinin ərzaq təminatında ailə təsərrüfatlarının mühüm rolu nəzərə alınaraq 2017-ci ildə muxtar respublikada “Ailə təsərrüfatı məhsulları” festivalı keçirilib, ailə təsərrüfatı məhsulları üçün taraların satışı mağazası istifadəyə verilib, 386 ailə təsərrüfatından 234 min manat dəyərində məhsullar satın alınıb və 13 təsərrüfata 243 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilib. 2017-ci ildə sahibkarlara 10 milyon manatdan çox kreditlər verilib, ölkə daxilində və xaricdə keçirilən 33 tədbirdə 150 sahibkarın iştirakı təmin olunub. Famil Seyidov özəl bölmənin inkişafı üçün yaradılan şəraitə görə muxtar respublika sahibkarları adından minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Elşad Əliyev bildirib ki, aqrar sektorda həyata keçirilən islahatlar muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin edilməsinə etibarlı zəmin yaradıb. Göstərilən dövlət qayğısı nəticəsində 2017-ci ildə muxtar respublika üzrə 61 min 531 hektar sahədə əkin aparılıb, sahələrdən 93 min 419 ton taxıl, 6697 ton paxlalılar, 12 min 573 ton dən üçün qarğıdalı, 750 ton dən üçün günəbaxan, 48 min 982 ton kartof, 84 min 723 ton tərəvəz, 38 min 349 ton bostan, 53 min tondan artıq meyvə, 15906 ton üzüm toplanıb. Muxtar respublikada suvarma sistemlərinin yeniləşdirilməsi istiqamətində görülmüş tədbirlər nəticəsində son illər Culfa, Babək və Kəngərli rayonlarında ümumilikdə 3000 hektar sahədə qapalı suvarma şəbəkələri tikilərək istifadəyə verilib. Sahibkarların müasir kənd təsərrüfatı texnikaları ilə təchizatı məqsədilə ötən dövr ərzində “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 2054 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası gətirilib, onlardan 1752-si lizinq və ya nağd satış yolu ilə sahibkarlara verilib. Hazırda muxtar respublikada 23 süni mayalama məntəqəsi fəaliyyət göstərir. Aparılan məqsədyönlü işlər nəticəsində muxtar respublikada iribuynuzlu malların sayı 112 min 371 başa, xırdabuynuzlu heyvanların sayı 681 min 903 başa, quşların sayı 1 milyon 277 min 741 başa, arı ailələrinin sayı isə 71 min 66-ya çatdırılıb. Hazırda muxtar respublikada 3 ət, 13 süd, 1 gön-dəri emalı, 1 balıq konservi, 1 yem istehsalı müəssisəsi və 3 yem sexi fəaliyyət göstərir.

Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sədri, “Cahan Holdinq” Kommersiya Şirkətləri İttifaqının direktoru Vüqar Abbasov qeyd edib ki, muxtar respublikada sahibkarlığın inkişafı sahəsində həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq müasir istehsal və emal müəssisələri istifadəyə verilib, qabaqcıl texnologiyaların muxtar respublikaya gətirilməsi və tətbiqinə şərait yaradılıb. “Cahan Holdinq” Kommersiya Şirkətləri İttifaqı da yaradılan şəraitdən istifadə edərək fəaliyyətini genişləndirib. Hazırda 22 əsas və bir neçə törəmə şirkəti özündə birləşdirən “Cahan Holdinq” Kommersiya Şirkətləri İttifaqı ticarət-kommersiya fəaliyyəti, ərzaq və qeyri-ərzaq məhsulları istehsalı, sənaye və xidmət sahələri üzrə fəaliyyət göstərir. İstehsal olunan məhsullar daxili tələbatı ödəməklə yanaşı, həm də ixrac olunur. 2017-ci ildə şirkətin dam örtükləri və istilik panelləri zavodu və tütün yetişdirmə təsərrüfatı fəaliyyətə başlayıb, 210 yeni iş yeri açılıb. Bu il isə şirkət tərəfindən aylıq istehsal gücü 1500 ton olan avtomatlaşdırılmış plastik boru, profil və aksesuarların istehsalı sahəsinin yaradılması nəzərdə tutulur.

Şərur rayonunun Çərçiboğan kəndində yaradılan istixana kompleksinin sahibkarı Abdulla Adıgözəlov çıxış edərək deyib: Kənd təsərrüfatı istehsalçılarına dövlət dəstəyindən bəhrələnərək 2013-cü ildən müasir istixana kompleksinin yaradılması sahəsində fəaliyyətə başlamışıq. İllik istehsal gücü 100 tondan çox olan istixanada müasir texnologiyaların tətbiqi bazara rəqabətədavamlı məhsul çıxarılmasına imkan verir. Bu il istixana kompleksini daha da genişləndirməyi nəzərdə tutmuşuq. Təsərrüfatımızda istixana kompleksi ilə yanaşı 7,5 hektar ərazidə yeni ərik, gavalı, heyva və üzüm bağı salmışıq. Cari ildə 2,5 hektar ərazidə yerli sortlardan ibarət şaftalı bağının salınmasını təmin edərək bağçılıq təsərrüfatımızı 10 hektara çatdıracağıq. Artıq zəhmətimizin bəhrəsini görürük. Ötən il təsərrüfatımızdan 20 ton meyvə, 100 ton tərəvəz məhsulu toplamış və satışını həyata keçirmişik. Əsas məqsədimiz əhalinin tərəvəz məhsullarına olan tələbatını ödəmək və ixrac imkanlarımızı artırmaqdır. Abdulla Adıgözəlov yaradılan şəraitə görə minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Muxtar Respublikasının yaranmasının 94-cü ildönümünün tamam olduğunu bildirib, bu münasibətlə tədbir iştirakçılarını, bütün muxtar respublika əhalisini təbrik edib, sosial-iqtisadi inkişafda əməyi olanlara təşəkkürünü bildirərək deyib: Müasir dövrdə hər bir ölkənin sosial-iqtisadi inkişafı onun malik olduğu sahibkarlıq subyektlərinin fəaliyyəti, onlar üçün yaradılan şəraitlə ölçülür. Ümummilli liderimiz Heydər Əliyev də deyirdi ki, “Sahibkarların səmərəli işləməsi Azərbaycanın iqtisadi inkişafını təmin edən amildir. Ona görə də biz sahibkarlığın inkişafına dövlət siyasətimiz kimi baxırıq. Azərbaycanın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun inkişafı ilə bağlayırıq”.

Ali Məclisin Sədri deyib: Bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında sahibkarların fəaliyyəti üçün hərtərəfli şərait, əlverişli biznes və investisiya mühiti yaradılıb. Vergi və gömrük güzəştlərinin, dövlət qeydiyyatında “bir pəncərə” prinsipinin tətbiqi sahibkarlıq fəaliyyətinin inkişafına böyük təkan verib. Muxtar respublikada dövlət-sahibkar münasibətlərinin düzgün qurulmasının nəticəsidir

# Naxçıvanda sahibkarlarla görüş keçirilib




ki, ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi artaraq 89 faizə çatıb. Hazırda muxtar respublikada istehsal olunan kənd təsərrüfatı məhsulunun hamısı, sənaye məhsulunun 95 faizi, tikintidə görülmüş işlərin 79 faizi, nəqliyyat xidmətlərinin 78 faizi, rabitə xidmətlərinin 83 faizə qədəri, ticarət və ictimai iaşə xidmətinin 100 faizi özəl sektorun payına düşür. Yaradılan şəraitin nəticəsidir ki, ərzaq təhlükəsizliyi tam təmin edilib, idxalın həcmi əhəmiyyətli dərəcədə azaldılıb, yeni iş yerləri açılıb. Vaxt vardı ki, Naxçıvan Muxtar Respublikasında 15 adda məhsul istehsal olunurdu. Bu gün 372 növdə məhsul istehsal olunur, 344 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir. Hazırda muxtar respublikada avtomobil və tikinti materiallarından tutmuş, ərzaq və məişət əşyaları istehsalına qədər çoxsaylı sahibkarlıq müəssisələri fəaliyyət göstərir. Məşğul əhalinin 83 faizi özəl sektorda çalışır.

Qeyd olunub ki, sahibkarlarımız aqrar sahənin inkişafına da öz töhfələrini verirlər. Torpaq mülkiyyətçilərinin torpaq vergisi istisna olmaqla bütün növ vergilərdən azad edilməsi, bu sahədə çalışanlara bir sıra güzəştlərin tətbiq olunması, subsidiyaların verilməsi, ailə təsərrüfatlarının fəaliyyətinin dəstəklənməsi öz nəticəsini göstərib, məhsul bolluğu yaranıb. Bu gün xidmət sahəsində də sahibkarlıq fəaliyyəti mühüm rol oynayır. Xidmət sektorunun inkişafı öz növbəsində turizmin inkişafına təsir göstərib, müasir turizm sektorunun formalaşması hesabına isə muxtar respublikaya gələn turistlərin sayı artıb.

Şübhəsiz ki, davamlı maliyyə dəstəyi olmadan sahibkarlıq sahələri inkişaf edə bilməz. Muxtar respublikada kreditlər üzrə aşağı faiz dərəcələrinin tətbiq olunması hesabına sahibkarların fəaliyyət dairəsi genişlənib. Sahibkarlığa Kömək Fondunun xətti ilə güzəştli şərtlərlə kreditlərin verilməsi də yeni fəaliyyətə başlayan sahibkarlıq müəssisələri üçün geniş imkanlar açıb. Muxtar respublikada idxaldan asılılığın aradan qaldırılması sahəsində görülən tədbirlər öz faydasını verməkdədir. Bu sahədə əhəmiyyətli addımlardan biri də ixracın təşviqi ilə bağlı qəbul olunmuş qərarlardır. Bunun nəticəsidir ki, ixracyönümlü məhsul istehsalı getdikcə artır. Hazırda Naxçıvan Muxtar Respublikasının dünyanın 50-dən çox ölkəsi ilə ticarət əlaqələri mövcuddur. İstehsal olunan müxtəlif adda məhsulların ixrac imkanlarının artması səbəbindən artıq 9 ildir ki, muxtar respublikanın xarici ticarətində müsbət saldo qeydə alınır.





Ali Məclisin Sədri diqqətə çatdırıb ki, sahibkarlığın inkişafında yerli məhsulların istehsalı qədər onların satışının təşkili də mühüm əhəmiyyətə malikdir. Bu gün muxtar respublikada ən müasir tələblərə cavab verən iri ticarət mərkəzlərinin fəaliyyət göstərməsi, mövsüm ərzində yarmarkaların və festivalların təşkili, satış yerlərində yerli məhsullara üstünlük verilməsi məhsul istehsalçılarının marağını artırıb. Son dövrlərin təhlilləri göstərir ki, tarladan birbaşa satışa prinsipinin dəstəklənməsi ailə təsərrüfatlarının inkişafına və artmasına əhəmiyyətli təsir göstərib. Bütövlükdə, sahibkarlığın inkişafının dəstəklənməsi muxtar respublikanın iqtisadi potensialını artırıb. Bunun nəticəsidir ki, Azərbaycan Respublikası Prezidentinin sədri olduğu "Caspian European Club"un 2017-ci il üçün hazırladığı investisiya reytinqində Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq birinci yerə çıxıb.

Ali Məclisin Sədri deyib: Bu gün əsas məqsəd ondan ibarətdir ki, sahibkarlıq mühiti daha da genişlənsin. Daxili bazarda yerli məhsullar hesabına bolluq yaradılsın. Yeni iş yerləri açılsın, məşğulluq təmin edilsin. Muxtar respublikanın ixrac imkanları artsın. Bunun üçün İqtisadiyyat Nazirliyi bundan sonra da kiçik və orta sahibkarlığın, eləcə də ailə təsərrüfatlarının inkişafına diqqəti artırmalı, birinci növbədə bu sahələrin güzəştli kreditlərlə təminatı diqqətdə saxlanılmalıdır. Qardaş Türkiyə Respublikası məhsul ixracında muxtar respublikaya sərbəst ticarət imkanı vermişdir. Bununla bağlı İqtisadiyyat Nazirliyi Türkiyənin müvafiq idxal qurumları ilə əlaqələr yaradaraq onların muxtar respublikadakı iş adamları ilə görüşlərini təşkil etməli, yerli məhsulların ixracında qarşıya çıxan çətinliklərin aradan qaldırılması üçün tədbirlər görməlidir. Daxili bazarın qorunması da diqqətdə saxlanılmalıdır. Dövlət Gömrük Komitəsi sağlam rəqabət mühiti formalaşdırmaq məqsədilə idxal-ixrac əməliyyatlarının müxtəlif tarif metodlarından istifadə əsasında tənzimlənməsini bundan sonra da davam etdirməli, Vergilər Nazirliyi sahibkarlıq subyektlərində əsassız yoxlamalara yol verməməlidir.

Qeyd olunub ki, yerli məhsulların daxili və xarici bazarlarda rəqabətədavamlı olması üçün keyfiyyət standartlarına ciddi əməl edilməlidir. Sahibkarlar istehsal prosesində ən müasir texnologiyaların tətbiqinə və keyfiyyətli xammaldan istifadəyə xüsusi diqqət yetirməlidirlər. Yerli icra hakimiyyəti orqanları ailə təsərrüfatlarına dəstək olmalı, ailə təsərrüfatları isə istehsal etdikləri məhsulların növ və çeşidini artırmalı, məhsulların keyfiyyətinə və standartlara uyğun qablaşdırılmasına diqqət yetirməlidirlər.

Ali Məclisin Sədri muxtar respublikanın inkişafında sahibkarların əməyinin, çəkdikləri zəhmətin təqdirəlayiq olduğunu bildirib, buna görə sahibkarlara bir daha təşəkkür edib, çıxışını ölkə Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlayıb: "Sahibkarların uğurlu işi bizim hamımızın uğurudur. Azərbaycanın inkişafı bu istiqamətdədir, bu yoldadır".

Sonra Ali Məclisin Sədri yeni istehsal və xidmət sahələrinin yaradılması üçün 11 sahibkara güzəştli kreditlərin çeklərini təqdim edib. Bu kreditlər plastik boru, profil və aksesuarları, heyvandarlıq məhsulları, arıçılıq məhsulları istehsalı və meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi sahələrinin yaradılmasına, eləcə də istixana təsərrüfatının fəaliyyətinin genişləndirilməsinə sərf olunacaqdır.

Tədbirdə 2017-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafından bəhs edən film nümayiş olunub.

Ali Məclisin Sədri Naxçıvan Biznes Mərkəzinin sərgi salonunda muxtar respublikada istehsal olunan məhsullardan ibarət sərgiyə baxıb.

Qeyd olunub ki, sərgi salonunda 94 müəssisənin 192 növdə və 1258 çeşiddə məhsulu, 37 ailə təsərrüfatında istehsal olunan 17 növdə 112 çeşiddə məhsul, 30 sənətkar tərəfindən hazırlanan 254 əl işi, rəsm əsərləri, xalçalar və Naxçıvan Muxtar Respublikasının istehsal müəssisələrinin xəritəsi nümayiş olunur. Muxtar respublikada istehsal olunan məhsulların çeşidinin və keyfiyyətinin artması onların xarici bazarlara çıxış imkanlarını xeyli genişləndirir. Bildirilib ki, Naxçıvan Avtomobil Zavodunda 14 modeldə avtomobil istehsal olunur. Hazırda zavodun Naxçıvan şəhərində, Şərur və Culfa rayonlarında ehtiyat hissələrinin satışı mağazaları fəaliyyət göstərir. Bu il isə Şərur və Culfa rayonlarında texniki xidmət sahələri yaradılacaqdır.

Ali Məclisin Sədri yerli məhsulların istehsal prosesinin təkmilləşdirilməsi və keyfiyyətinin yüksəldilməsi, Naxçıvan məhsullarının xarici bazarlara çıxışı imkanlarının və ixrac potensialının artırılması, məhsulların qablaşdırılmasına və tara istehsalı sahələrinin yaradılmasına diqqət yetirilməsi, sahibkarlar arasında qarşılıqlı əlaqələrin gücləndirilməsi, Naxçıvan Avtomobil Zavodunun istehsalı olan "NAZ-Lifan-5028" modelinin əsasında təcili tibbi yardım avtomobillərinin yığılması barədə tapşırıqlar verib.

# MSK-nın üzvü: "İlham Əliyev demokratik seçkilərin keçirilməsində tələbkardır"

*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü Tofiq Həsənovun SİA-ya müsahibəsi:*

***- Tofiq müəllim, 2018-ci il aprel ayının 11-də Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkilərinə hazırlıqla bağlı Mərkəzi Seçki Komissiyası hansı işləri görməyi nəzərdə tutub?***



- Bildiyiniz kimi, bu ilin fevral ayının 5-də cənab Prezident İlham Əliyev növbədənkənar prezident seçkilərinin keçirilməsi ilə bağlı müvafiq Sərəncam imzaladıqdan sonra Mərkəzi Seçki Komissiyası (MSK) fevral ayının 6-da özünün ilk iclasını keçirdi. İclasda hazırlıq hərəkəti, seçkilərin təşkili kimi məsələlər müzakirə olundu. Bununla bağlı biz ilkin olaraq Təqvim Planını təsdiq etdik. Ümumiyyətlə, seçkilərin keçirilməsi ilə bağlı ötən illərdən MSK, digər dairə və məntəqə seçki komissiyaları böyük təcrübə əldə edib. İllərin təcrübəsi var. Lakin biz bütün bunlarla kifayətlənmirik. Biz hər dəfə yeni addımları müzakirə edirik. Seçkilərin daha mütəşəkkil, daha yaxşı təşkili ilə bağlı müzakirələr aparırıq. O cümlədən bütün fəaliyyətimizi Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq təşkil edilməsi bizim başlıca vəzifəmiz olaraq qalır və gündəmdədir. Biz bununla bağlı ilkin olaraq Seçki Məcəlləsində seçki hərəkətlərinin həyata keçirilməsi məsələlərini müzakirə etdik. Təbii ki, seçki böyük bir prosesdir.

Əvvələ onu qeyd edim ki, Azərbaycanda böyük seçkilərin keçirilməsi üçün şəffaf, müasir standartlara cavab verən bütün imkanlar vardır. Bu mənada Azərbaycan dövlətinin nailiyyəti önəmlidir. Yaxşı qanunvericilik bazamız var və bu sahə ilə məşğul olan mütəxəssis kadrlarımız var. O cümlədən dövlətimizdə bu işlərin həyata keçirilməsi üçün hər bir şərait və ən əsası böyük bir siyasi iradə var. Əgər ölkədə siyasi iradə olmasa normal demokratik seçkilərin keçirilməsindən söhbət gedə bilməz. Bu gün Azərbaycanda Prezident İlham Əliyevin böyük bir siyasi iradəsi var və ölkə başçısı demokratik seçkilərin keçirilməsində maraqlıdır, tələbkardır. Bununla bağlı biz işimizi Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq hazırlıq hərəkətlərimizin və seçkilərin həyata keçirilməsi ilə bağlı Təqvim Planını təsdiq etdik və bu Plana uyğun olaraq da hərəkətləri etməyə başlamışıq.

***- Namizədlərin irəli sürülməsi və onların qeydə alınması hansı tarixdən başlayacaq?***

- Ümumiyyətlə, Seçki Məcəlləsinin tələbinə uyğun olaraq seçkilərin keçirilməsi ilə bağlı müvafiq sərəncam, MSK-nın qərarı dərc olunduqdan sonra artıq namizədlərin irəli sürülməsi və onların qeydə alınması hüququ yaranır. Prezident seçkilərində namizədliyin irəli sürülməsi ilə bağlı bu hüquq kimlərə şamil olunur? İlkin olaraq təşəbbüslər - vətəndaşlarımız və onların yaratdıqları təşəbbüs qruplarına, siyasi partiyalar və siyasi partiyaların bloklarına şamil olunur. Azərbaycan Respublikası Konstitusiyasının 100-cü maddəsinin tələblərinə cavab verən namizədlər öz namizədliyini irəli sürə bilərlər. Şübhəsiz ki, burada siyasi partiyaların, partiya bloklarının da maraqları ola bilər. Yəni onlar da öz namizədlərini irəli sürə bilirlər.

***- Seçki prosesində xarici müşahidəçilər hansı formada iştirak edəcək və bu barədə MSK müraciətlər göndərib?***

- Təbii ki, seçkilərdə demokratiklik və şəffaflıq başlıca prinsiplərdən biridir. Azərbaycan dövləti və rəhbərliyi seçkilərin keçirilməsində maraqlıdır. O cümlədən illərin təcrübəsi də göstərir ki, MSK rəhbəri Məzahir Pənahov bu məsələyə xüsusi önəm verir. İstər yerli, istərsə də beynəlxalq müşahidəçilərin iştirakını biz həm arzulayırıq, həm də onların daha yaxşı, əlverişli şəraitdə müşahidə etməsi üçün bilavasitə şərait yaradılmasının təminatçısı oluruq. Bu baxımdan da biz maraqlıyıq ki, seçkilərimizi beynəlxalq müşahidəçilər görsün. Bu gün ölkəmiz seçkilərin keçirilməsi ilə bağlı çox böyük təcrübə əldə edib. Yəni seçkilərin keçirilməsi ilə bağlı bizdən də öyrənilməsi mühüm nəticələr, tövsiyyələr ola bilər. Bir sözlə beynəlxalq müşahidəçilərdən utanılacaq heç bir şeyimiz yoxdur. Dəfələrlə olub ki, beynəlxalq müşahidəçilər gəlib bizim yaxşı nəticələrimizi yüksək qiymətləndiriblər. Hətta MSK sədri də dəfələrlə qeyd edir ki, ölkəmizdə o qədər demokratik mühitin təmin olunması istiqamətində atılan addımlar var ki, biz deyə bilərik ki, hansısa bir xarici ölkələrdə tətbiq olunan yeni texnologiyadan biz yararlanmayaq.

***- Xarici ölkələrdə seçkilərin təşkili və keçirilməsi ilə bağlı nə deyə bilərsiniz?***

- Təbii ki, onlar Azərbaycan Respublikasının vətəndaşları hesab olunurlar. Azərbaycanın hüdudlarından kənarda yaşayan, seçki hüququ olan vətəndaşlarımız, eləcə də diplomatik missiyanı həyata keçirən bizim diplomatlarımız var. Həmçinin seçki dövründə xaricdə ezamiyyətdə olan nümayəndələrimiz vardır. Bununla bağlı hər il olduğu kimi onların siyahısının dəqiqləşdirilməsi ilə bağlı iş aparılacaq. Təbii ki, biz bu işləri Azərbaycan Xarici İşlər Nazirliyi ilə birgə həyata keçirəcəyik. İllərin təcrübəsinə uyğun olaraq diplomatik korpuslarımızda, səfirliklərimizdə, konsulluq idarələrində bu işin təşkili ilə bağlı birgə iş aparırıq. Təbii ki, səsvermə gününə 25 gün qalanadək bu siyahılar dəqiqləşdirilir. Dəqiqləşdirildikdən sonra onların məntəqələr üzrə səsverməsi üçün dəvətnamələr müəyyənləşdiriləcək. Əvvəlki illərdə olduğu kimi onların da normal, demokratik mühitdə səsverməsi üçün lazım olan şərait yaradılacaq.

***- Bilmək istərdik, bəzi müxalifət partiya sədrləri seçkiləri boykot çağırışı ilə çıxış edirlər. Bu, MSK-nın seçkiləri təşkil və həyata keçirmək məsələsinə təsir göstərə bilər?***

- Ümumiyyətlə, hər hansı bir siyasi partiyaların və yaxud vətəndaşların seçkiləri boykot etməsi tamamilə siyasi bir məsələdir. Yəni hüquqi müstəvidə bu məsələnin həllinə şamil olunmur. Ümumiyyətlə, seçkilər Seçki Məcəlləsi və Konstitusiyanın tələblərinə uyğun olaraq həyata keçirilir. Kimlərinsə boykot etmək çağırışı, kimlərinsə seçkidə iştirak etməməsi bu ölkədə yaradılan demokratik mühitə elə də kölgə salmamalıdır. Seçkiləri boykot etməyi əsas tutub seçkiyə getməmək vətəndaşın özünün hüququdur. O seçkiyə getməyə bilər, amma biz seçkilərdə elə bir demokratik mühit yaradacağıq ki, burada həqiqətən rəqabətli, azad, demokratik seçki mühiti təmin olunsun. Yəqin ki seçki prosesində namizədlər də olacaq və seçkilərin keçirilməsi Seçki Məcəlləsi ilə tənzimlənəcək. Yəni kimlərinsə siyasi məlumatının, mesajının Seçki Məcəlləsinə heç bir aidiyyəti yoxdur. Biz bu Seçki Məcəlləsinə müvafiq olaraq işimizi həyata keçirəcəyik.

***- Yeri gəlmişkən, müxalifət yetkililəri və onların təəssübkeşləri sosial şəbəkələrdə seçkilərlə bağlı təhqiramiz, həm də şər-böhtan xarakterli yazılar, şəkillər, məlumatlar paylaşırlar. Bu haqda siz hansı fikirdəsiniz?***

- Təbii ki, bu məsələ də çox ciddidir. Çünki sosial şəbəkələrdə bizim vətəndaşlarımız, əhalimiz var. Bütün bunlar əhali tərəfindən birmənalı qarşılanmır. Orada müəyyən insanlar var ki, seçkilərin keçirilməsinə kölgə salmaq istəyirlər. Bu o demək deyil ki, həmin hərəkətlər bütövlükdə Azərbaycan vətəndaşlarının, seçicilərinin iradəsidir. Seçicilərin iradəsi aprel ayının 11-də seçki məntəqələrinə gəlib vətəndaşların səsverməsi ilə müəyyən olunacaq. Amma indiki vəziyyət qaçılmaz da deyil. MSK-nın son iki iclasında, o cümlədən müsahibələrində MSK sədri Məzahir Pənahov bu məsələlərə çox tez-tez toxunur. Hətta bununla bağlı müzakirələr aparılır. Bu məsələ ilə bağlı yəqin ki MSK-nın cəmiyyətimizə, ölkəmizə, vətəndaşlarımıza bir tövsiyəsi olmalıdır. İstəyirik ki, bu kimi məsələlərə aydınlıq gətirmək üçün yaxın vaxtlarda müvafiq tədbir keçirək.

***Ceyhun RASİMOĞLU***

# Hikmət Hacıyev: Avropa İttifaqı - Azərbaycan Əməkdaşlıq Şurasının 15-ci iclası konstruktiv dialoq şəraitində keçib

## *Avropa İttifaqı və Azərbaycan arasında təhlükəsizlik və nəqliyyat məsələləri üzrə dialoq mexanizmi təsis ediləcək*

***Avropa İttifaqı - Azərbaycan Əməkdaşlıq Şurasının 15-ci iclası pozitiv, konstruktiv və işgüzar dialoq şəraitində keçib. İclasa Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov, Avropa İttifaqı tərəfindən isə Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Federika Mogerini sədrlik edib. Avropa İttifaqı ilə Azərbaycan arasında siyasi, iqtisadi, ticarət, nəqliyyat, enerji, humanitar və digər sahələrdə əməkdaşlıq məsələləri ətraflı müzakirə olunub.***

AZƏRTAC xəbər verir ki, bu barədə KİV-ə açıqlamasında Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib.

H.Hacıyev deyib: "İclasda qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci ilin əvvəlində Avropa İttifaqına səfəri ikitərəfli əlaqələrin inkişafında yeni səhifə açıb və əlaqələrin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasını təmin edib.

Bakı-Tbilisi-Qars dəmir yolu xətti və ümumiyyətlə, Şərq-Qərb nəqliyyat dəhlizinin inkişafına, Cənub Qaz Dəhlizi və bu xüsusda TAP layihəsinə Avropa İttifaqının qəti dəstəyi bir daha ifadə olunub.

Həmçinin Avropa İttifaqı tərəfindən Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə tam dəstək ifadə edilib. İclas nəticəsində razılıq əldə olunub ki, Avropa İttifaqı və Azərbaycan arasında təhlükəsizlik və nəqliyyat məsələləri üzrə dialoq mexanizmi təsis edilsin.



# "Yeni Azərbaycan Partiyasının qurultayının qərarı xalqımızın iradəsinə söykənərək, Azərbaycan dövlətinin gələcək illərdəki inkişafına mühüm töhfələr verəcək"



"Yeni Azərbaycan Partiyasının namizədi Azərbaycan xalqının mütləq əksəriyyətinin dəstəklədiyi namizəddir. Hesab edirəm ki, 2018-ci il aprelin 11-də keçiriləcək prezident seçkilərində YAP-ın Sədri, Möhtərəm Prezidentimiz İlham Əliyevin namizədliyinin irəli sürülməsi barədə Yeni Azərbaycan Partiyasının VI qurultayının qərarı xalqımızın iradəsinə, arzu və istəyinə söykənərək, Azərbaycan dövlətinin gələcək illərdəki inkişafına mühüm töhfələr verəcək". Bu sözləri Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib. V.Rəhimzadə bildirib ki, Azərbaycanın son 14 ildə əldə etdiyi dünya miqyasında təqdir olunan uğurlar, məhz Prezident İlham Əliyevin adı, onun uğurlu daxili və xarici siyasəti ilə bağlıdır. Onun sözlərinə görə, 2003-cü ildən bəri ölkəmizə rəhbərlik edən Prezident İlham Əliyev verdiyi bütün vədlərə sadiq olub, dövlətimizin başçısının həyata keçirdiyi uzaqgörən, məqsədyönlü siyasət nəticəsində, Azərbaycanda sabitlik və dayanıqlı inkişaf təmin edilib: "Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu xarici siyasət kursunun məntiqi nəticəsi kimi, Azərbaycanın beynəlxalq mövqeyi möhkəmlənib. Bu gün Azərbaycan beynəlxalq müstəvidə söz və nüfuz sahibidir".

YAP Siyasi Şurasının üzvü əlavə edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən uğurlu sosial-iqtisadi siyasət dövlətimizin qüdrətinin artmasını təmin edib, əhalinin maddi rifah halı daha da yaxşılaşıb: "Azərbaycanın müstəqillik tarixində qazandığı uğurlara söykənərək, dövlətimizin başçısı Cənab İlham Əliyev qarşıdakı illər üçün prioritetləri açıqlayıb. Əsas hədəflər şaxələndirməni sürətləndirmək, ümumi daxili məhsulun daha iki dəfə artırılmasına nail olmaq, Azərbaycanı yüksək gəlirli ölkəyə çevirmək, inkişaf etmiş ölkələr sırasında görməkdir. Bu hədəflər, təbii ki, bugünkü reallıqlara əsaslanır. Məhz bu məqsədlərə çatmaq üçün "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, ayrı-ayrı istiqamətləri əhatə edən strateji yol xəritələri icra olunur".

"Prezident İlham Əliyev həmişə bəyan edib ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşları, onların maraqları dayanır. Biz Cənab Prezidentin fəaliyyətində bunun əyani təsdiqini görürük. Azərbaycanın bugünkü inkişafını təmin edən və gələcək tərəqqi üçün etibarlı zəmin yaradan əsas amillərdən biri də çoxşaxəli islahatların həyata keçirilməsidir. İslahatların dövrün tələblərinə uyğun aparılması xüsusi əhəmiyyətə malikdir. Çoxşaxəli islahatlar bütün sahələri əhatə edir, o cümlədən, idarəetmə sistemi daha da təkmilləşdirilir. Ümumiyyətlə, Azərbaycanın idarəçilik sistemində yeniləşmə və təkmilləşmə son illərin mühüm uğurlarındandır", - deyə Vüqar Rəhimzadə vurğulayıb.

V.Rəhimzadə bildirib ki, dövlətimizin başçısı Cənab İlham Əliyev ötən dövr ərzində hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirib: "Prezident İlham Əliyevin təşəbbüsü və dəstəyi hesabına başa gələn böyük iqtisadi, enerji və nəqliyyat layihələri dünya dövlətləri üçün mühüm əhəmiyyət kəsb etməklə, regionun inkişafına layiqli töhfələr verir. Azərbaycan dünyanın ən böyük və əhəmiyyətli təşkilatı olan Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi dünyada sülh və təhlükəsizliyin təmin olunmasına, insan haqlarının müdafiəsinə mühüm töhfələr verib. Azərbaycanın paytaxtı Bakı şəhəri ən mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edib. Ölkəmizdə "Eurovision", Birinci Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, "Formula-1" yarışları kimi bütün dünyanın diqqət mərkəzində olan mühüm mədəniyyət və idman tədbirləri keçirilib. Təbii ki, bu gün dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə görülən işlər, Azərbaycan xalqının və dövlətinin mənafeyinin ən yüksək səviyyədə qorunmasına yönəlmiş qlobal fəaliyyət hər bir azərbaycanlı tərəfindən yüksək qiymətləndirilir və Cənab Prezidentin yorulmaz fəaliyyəti xalqımızın bütün təbəqələri tərəfindən dəstəklənir".

# Millət vəkili: "Bəzi marginal qruplar cəmiyyətə müxalifət kimi sırınmağa çalışılır"

*"Azərbaycan demokratik ölkədir. Azərbaycanda insan hüquqları və azadlıqları, siyasi azadlıqlar, vicdan, dini-etikad azadlıqları qorunur. Bunların hamısının təminatçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdir, Azərbaycan dövlətidir və ölkəmizin Konstitusiyasıdır". Bunu SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.*



Onun sözlərinə görə, Azərbaycan demokratik ölkə kimi həmişə istəyir ki, konstruktiv müxalifət olsun: "Eləcə də cəmiyyətdə sözün həqiqi mənasında siyasi rəqabət yarada biləcək, cəmiyyətə yeni ideyalar verə biləcək, problemlərin həlli ilə bağlı alternativ fikirlər istehsal edə biləcək siyasi təşkilatlanmaya hər bir cəmiyyətdə ehtiyac var. Çox təəssüf ki, Azərbaycanda özünü müxalifət kimi təqdim etməyə çalışan bəzi marginal qruplar heç bir rasional siyasi fəaliyyətdə iştirak etmirlər, heç bir proqressiv təklif irəli sürmürlər, heç bir yeni fikir, ideya istehsalı ilə məşğul olmurlar və mütərəqqi siyasi dəyəri təbliğ etmirlər. Ona görə də onların ətrafında ciddi siyasi elektorat toplaşmır. Belə olan halda təəssüf ki, bəzi marginal qruplar Azərbaycanın uğurlarını istəməyən antiazərbaycançı mərkəzlər tərəfindən Azərbaycan cəmiyyətinə müxalifət kimi sırınmağa çalışırlar. Onlar da xaricdən aldıqları tezislər əsasında anti-Azərbaycan fəaliyyətlərini ölkə daxilində həyata keçirməyə çalışırlar.

Biz bunu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə münasibətdə, Azərbaycanın iqtisadi, siyasi uğurlarına münasibətdə də görürük. Ona görə də siyasi təşkilatın özünün həm fəaliyyəti, həm də funksionallığı bir də onunla qiymətləndirilir ki, hər hansı bir siyasi təşkilat ölkədə baş verəcək istənilən siyasi prosesə hazır olmalıdır. Əgər bu belə deyilsə, demək o siyasi təşkilatlanma uğurlu bir siyasi təşkilatlanma deyil. Bu mənada əgər bu gün hansısa müxalifət partiyası 11 aprel prezident seçkilərini özlərinin hazırlıqsız yaxalanmaları kimi qiymətləndirirsə və yaxud bununla bağlı namizəd irəli sürə bilmirsə demək problem həmin siyasi təşkilatlanmanın özündədir. Çünki siyasi təşkilat dediyimiz odur ki, daima ictimai-siyasi proseslərə hazırlıqlı olsun. Ona görə də xaricdəki mərkəzlərdən qrant alıb silməklə, tezislər alıb ölkədəki sabitliyi pozmaq məqsədilə fəaliyyət göstərməyə çalışan "müxalifət" müxalifət ola bilməz və bütün bəhanələr də yalnız onların fəaliyyətsizliyi ilə izah oluna bilər".

# Bakıda İranın milli bayramı qeyd edilib



İran İslam İnqilabının 39-cu ildönümü münasibətilə İranın Azərbaycandakı səfirliyi tərəfindən qəbul keçirilib. APA-nın xəbərinə görə, tədbirdə çıxış edən İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə deyib ki, hazırda beynəlxalq iqtisadi göstəricilərə görə, İran dünyanın ən güclü iqtisadiyyatına malik olan 18-ci ölkəsidir. İran regional sabitlik amili kimi çıxış edib, terror və İŞİD təhlükəsinin qarşısını almaq üçün ciddi addımlar atıb.

Azərbaycan və İran arasında dostluq və qardaşlığa əsaslanan münasibətlərin gündən-günə inkişaf etdiyini deyən səfir bildirib ki, iki ölkə başçıları arasındakı səmimi münasibətlər əməkdaşlığın güclü dayağıdır: "İran və Azərbaycan düşmənləri bu qardaşlıq durumuna heç vaxt ziyan verə bilməyəcəklərini yaxşı bilirlər".

Səfirin sözlərinə görə, son illər iki ölkə arasında turist mübadiləsində artım olub və bu, dostluq, səmimiyyətin zəmanətidir: "Çox şadıq ki, ölkələrimiz arasında Şimal-Cənub nəqliyyat dəhlizi, avtomobil istehsalı zavodu kimi ciddi layihələr həyata keçirilir. Ölkələr arasındakı daimi məsləhətləşmələr bu bağların möhkəmlənməsinə zəmin yaradır. Hökumətlərarası müştərək iqtisadi komissiya İran və Azərbaycan dostluğunun möhkəmlənməsi yolunda ortaq işlərin görülməsində geniş layihələrə malikdir".

Tədbirdə çıxış edən Azərbaycan iqtisadiyyat naziri Şahin Mustafayev bildirib ki, Azərbaycan və İranı ortaq mənəvi dəyərlər birləşdirir. Onun sözlərinə görə, ölkələrimiz arasında əlaqələr bu gün ən yüksək səviyyəyə qalxıb:" Son 4 ildə investisiya, ticarət sahəsində inkişaf əldə olunub. 2017 -ci ildə ticarət dövriyyəsi 30 faiz artıb. Dünən Astara-Astara dəmiryolu xətti üzrə ilk sınaq yük qatarı İrana yola salınıb. İranda yük terminalının tikintisinə başlanılıb. Azərbaycan İran Rəşt-Astara dəmiryolu layihəsinin maliyyələşdirilməsi üzrə danışıqlar aparılır. Bundan başqa, ölkələrimiz arasında humanitar, təhsil, mədəniyyət sahələrində də inkişaf davam edir".

# Musa Qasımlı: "İlham Əliyevin qələbə qazanacağı şəksizdir"

"İlham Əliyevin namizədliyinin irəli sürülməsi tamamilə təbiidir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Musa Qasımlı deyib.



Onun sözlərinə görə, siyasi partiya mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan dövlətinin daha güclü olmasını, ölkəmizin sabit və davamlı inkişafını, xalqımızın daha yaxşı yaşamasını istəyən hər bir şəxsin bu hal üreyindəndir: "Prezident İlham Əliyev Azərbaycan tarixində bir çox ilklərə imza atmış görkəmli dövlət və siyasi xadimdir. Onun seçkilərdə alternativi yoxdur və parlaq qələbə qazanacağı şəksizdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlər ölkəmizin qarşısında yeni inkişaf üfüqlərinin açılmasını şərtləndirib. Azərbaycan dünyada ən sürətlə inkişaf edən və müasirləşən dövlətlər sırasında dayanır. Bu inkişaf isə yeni çağırışları və gerçəklikləri ortaya çıxarır ki, Azərbaycan dövləti də bu çağırışlara uyğun siyasi kurs həyata keçirir".

# Vatikanın xarici dövlətlərlə əlaqələr üzrə katibi Azərbaycana rəsmi səfər edəcək



Müqəddəs Taxt-Tacın xarici dövlətlərlə əlaqələr üzrə katibi Arxiyepiskop Paul Riçard Gallagher fevralın 9-12-də Azərbaycanda rəsmi səfərdə olacaq. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində Arxiyepiskop Paul Riçard Gallagherin xarici işlər naziri Elmar Məmmədyarov və digər yüksək rəsmi şəxslərlə görüşü, Fəxri xiyabana və Şəhidlər xiyabanına, Müqəddəs Məryəm Katolik Kilsəsinə, Təzəpir Məscidinə ziyarəti və başqa tədbirlərin təşkil edilməsi planlaşdırılır.

# Əli Kərimlinin trolları özlərini bu cür ifşa edirlər

*AXCP sədri hətta sosial şəbəkə üzərindən belə doğru-dürüst siyasət aparmaq qabiliyyətində deyil*

Prezident seçkiləri ərəfəsində AXCP sədri Əli Kərimlinin trolları hərəsi özünə bir neçə saxta profil açaraq, hakimiyyətin siyasətini dəstəkləyən insanlara qarşı söyüş və təhqir kampaniyalarına başlayıblar. Söz yox ki, məhz Ə.Kərimlinin "tərbiyəsinə" uyğun qaydada sosial şəbəkələrdə fəaliyyət göstərən trollar buna görə AXCP sədrindən müəyyən miqdarda "yalpulu" alırlar. Lakin





məsələ yalnız bunda deyil. Məsələ həm də ondadır ki, son günlər AXCP ilə "REAL" arasında gedən amansız savaş vaxtı Kərimlinin trolları təsadüfən özlərini ifşa ediblər. Ümumiyyətlə, bu vaxta qədərki seçkilərdə heç nəyə nail ola bilməyərək, uğursuzluq zolağında ilişib qalan radikal müxaliflər indi də virtual dünyada yaratdıqları seçki oyunbazlıqlarında özlərini ifşa etməklə məşğuldurlar.

### AXCP- "REAL" qarşıdurmasında cəbhəçi trollar bu cür açığa çıxmışdılar

Artıq bu hal neçənci dəfədir ki, baş verib. Misal üçün, "Sabah Azərbaycanda prezident seçkisi keçirilərsə, hazırkı iqtidara alternativ ola biləcək namizədlərdən prezident kürsüsündə hansını daha çox görmək istəyərdiniz?" başlığı altında keçirilən sorğuda "REAL" sədri İlqar Məmmədovla AXCP sədri Əli Kərimli yarışdırılıb. Ortaya isə çox əcaib bir məsələ çıxıb. Artıq neçə gündür ki, hər iki tərəf sorğunun saxta olması ilə bağlı bir-birini ən ağır şəkildə təhqir etməklə məşğuldurlar.

Onu da qeyd edək ki, partiya sədrindən daha çox bloggerə bənzəyən Kərimli əlindəki yeganə resurusu olan sosial şəbəkələrdəki saxta profillərini işə salsa da, onlar öz çirkin işlərinin öhdəsindən gəlməyi bacarmırlar.

Əlbəttə, "REAL"-ın da trolları boş dayanmırlar. Yəni eyni ittihamları AXCP-üçün "REAL"-çı trollar səsləndirirlər. Onlar da öz statuslarında iddia edirlər ki, yazılan şərhlərin əksəriyyəti, məhz AXCP trollarının işidir. Nəticədə, vəziyyət o qədər gərgin hala gəlib-çıxıb ki, özləri-özlərini ifşa ediblər. Cəbhəçi trol anidən diqqətdən yayınmaqla, əsas səhifədə paylaşım edərək, kərimovçuları fəal olaraq səs verməyə çağırıb. Bununla da açılıb sandıq, tökülüb pambıq...

Qeyd edək ki, bir neçə gün öncə də bənzər hal yaşanmışdı. Paylaşımda Ə.Kərimlinin bir azdan canlı yayıma çıxacağı göstərilir və tapşırıqlar verilir: "Ə.Kərimli 25-30 dəqiqə sonra öz səhifəsinə canlı yayıma çıxacaq. Yayımı dərhal paylaşmalı, müzakirələrdə aktiv iştirak etməliyik. Yaxşı olar ki, şərhlərdə "Milli Şura"dan "ümumxalq mitinqləri çağrılsın" tələbləri irəli sürülməklə ictimai rəyi formalaşdıraq".

Bütün bunlar isə, radikal müxalifətin, hətta adi sosial şəbəkə üzərindən belə doğru-dürüst siyasət aparmaq qabiliyyətlərinin olmadığını isbatlayır. Hər halda, faktlar da bunu göstərir.

***Rövşən NURƏDDİNOĞLU***

# Dövlət Miqrasiya Xidməti tərəfindən 6 xarici vətəndaş saxlanılıb

Dövlət Miqrasiya Xidməti (DMX) tərəfindən qanunsuz miqrasiyaya qarşı keçirilmiş tədbirlər zamanı 2 nəfər Hindistan, 1 nəfər Pakistan və 3 nəfər Nepal vətəndaşı saxlanılıb. DMX-dən AZƏRTAC-a verilən məlumata görə, araşdırma zamanı məlum olub ki, Bakı şəhərində Qərbi Kaspi Universitetinin hazırlıq kursunda təhsil alan Hindistan vətəndaşı Verma Dalip Kumar, öz həmvətəni Jagmeet Singh tərəfindən təsis edilmiş "Mops Tour and Travel" MMC vasitəsilə sosial şəbəkələrdən istifadə etməklə əcnəbilərin Azərbaycana gətirilməsi və burada yerləşdirilməsini təşkil edib, onların müvəqqəti yaşama üçün icazə vəsiqələri ilə təmin olunmasına dair vədlər verib.



Nepal vətəndaşları Kuldip Mahara, Mandal Santosh Kumar və Mandal Suraj Kumar həmin şirkətin vasitəsilə Azərbaycandakı əlaqələndiriciləri Verma Dalip Kumarla bağlantı yaradıblar. Verma Dalip Kumar qeyd edilən Nepal vətəndaşlarını dələduzluq yolu ilə aldadaraq onlara Azərbaycanda guya işlə təmin ediləcəklərinə dair vədlər verib, ilkin mərhələdə 2500 ABŞ dolları məbləğində pul vəsaitlərini alaraq mənimsəyib.

Nepal vətəndaşları bu il yanvarın 17-də ölkə ərazisinə daxil olub, Verma Dalip Kumar tərəfindən qarşılanıb, "İçəri Şəhər"də kirayə mənzilə yerləşdiriliblər. Verma Dalip Kumar qeyd olunan əcnəbilərə müvəqqəti yaşama üçün icazə vəsiqələri almaqla Azərbaycanda yaşayışlarını leqallaşdıracağına söz verib və onların vasitəsilə Nepal vətəndaşlarının gələcəkdə Azərbaycana kütləvi şəkildə gətirilməsini təşkil edəcəyini bildirib. Verma Dalip Kumar Nepal vətəndaşlarına nəzarət olunması, onların yeməklə təmin edilməsi məqsədilə aylıq 200 manat ödəniş müqabilində Rəssamlıq Akademiyasında təhsil alan Pakistan vətəndaşı Ijaz Muhammad ilə razılaşıb. Ijaz Muhammad Nepal vətəndaşları ilə bir evdə yaşayıb, onları olduqları yer üzrə qeydiyyata aldırıb və gündəlik qidalanmalarını təmin edib. Görülmüş tədbirlər nəticəsində qeyd olunan şəxslər tərəfindən Nepal vətəndaşlarının Azərbaycan Respublikasına gətirilərək qanunsuz miqrantlara çevrilməsi və neqativ miqrasiya kanalının təşkil edilməsi cəhdinin qarşısı alınıb. Eyni zamanda keçirilmiş tədbirlər zamanı ölkə ərazisində qanunsuz yaşayan 1 nəfər Nigeriya Federativ Respublikasının vətəndaşı Azeez Olalekan Kareem saxlanılıb, əcnəbinin təhlükəli yoluxucu xəstəlik daşıyıcısı olduğu məlum olub, Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılması təmin edilib.

# Narkotik satmaqda şübhəli bilinən şəxs saxlanılıb

DİN Mətbuat Xidmətinin Quba regional qrupundan SİA-ya verilən məlumata görə, Xaçmaz RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində rayon ərazisində narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən şəxs saxlanılıb. Araşdırmalarla onun rayonun Ağ-çay kənd sakini, əvvəllər məhkum olunmuş Həsən Qasımov olduğu məlum olub. Baxış zamanı onun üzərindən 1 bükümdə narkotik vasitə olan marixuana aşkar olunub.

Ətrafında aparılan tədbirlərlə onda əlavə narkotik maddə olduğu müəyyən edilib. H.Qasımovun yaşadığı evə baxış zamanı sellofan torbada çəkisi 460 qram olan qurudulmuş marixuana da aşkar edilib. Saxlanılan şəxs götürülmüş maddi sübutlarla birgə istintaqa təhvil verilib. Faktla bağlı Xaçmaz RPŞ-də cinayət işi başlanılıb.





## Bir az da qəbir daşlarından...

AFƏT

***Çiskinli bir axşam, "Qurd Qapısı" yaxınlığındakı qəbiristanlıq. Bu dünyayla "o dünya"nı bir-birindən "ayıran" hasarın o üzündəki qəbiristanlığın səssizsiliyini hasarın bu tərəfindəki qaynar, gediş-gəlişli həyatın səs-küyü pozurdu. Hasarın bu üzündəki maşınların markalarından, insanların geyimlərindən kimin necə yaşaması məlum olduğu kimi, hasarın o üzündəki qəbir daşlarından da hansı qəbirdə yatanın vaxtilə necə yaşaması görünməkdədir. Qəbir yerinin nə qədər böyük, sinə daşının nə qədər enli, baş daşının nə qədər hündür olması qəbirdə yatanın hansı "çəkidə" olmasından xəbər verir.***

Deyirəm, görəsən, bəzi şəxslər tərəfindən sərgiyə çıxarılmayan, reklam olunmayan nələrsə qalıbmı? Ərzaqdan tutmuş geyim, tikinti materialları, məişət avadanlıqları və s. və i. a. Həyatda başımıza gələn bir çox hadisələri görüb təəccübləndikcə, hər dəfə "daha bundan sonra təəccüblənmərəm, məni təəccübləndirmək çətin olar" deyə düşünmüşəm. Amma hərdən elə şeylər görüb, şahidi olursan ki, nəinki təəccüblənir, hətta dəhşətə gəlirsən...

Təsəvvür edin ki, qarşınıza "Qəbir daşları - sərgisi, sifarişi və satışı" yazılmış lövhə çıxır. Bıy, gözümüz aydın, sərgilər azmış kimi, bu da sizə lap təzə bir sərgi salonu. Ağ, qara, qırmızı, nə rəngdə, hansı ölçüdə, hansı formada istəsəniz, müxtəlif daşlar sərgilənir. Kitab, məscid, avanqard kəsilmiş daha nələr - hansı formada, hansı ölçüdə istəsən. Bu həyatda nə işlə məşğul olursansa, sənətin nədirsə həmin formada başdaşı hazırlada da bilərsən. Sərgini seyr etdikcə, adam lap istəyir ki, ölməmiş həmin sərgidə öz zövqüylə, istədiyi formada özünə daş sifariş versin... Amma orasını da deyim ki, elə oradaca daşların gözəlliyi məni necə valeh etdisə, istədim indidən elə peşəmə uyğun ya kompyuter, ya qələm, ya da qəzet formasında daş sifariş edim. Hələ, üstəlik, Taras Şevçenko kimi vəsiyyət də etmək istədim:

"Mən öləndə məni basdırarsınız,
Yüksək bir təpədə, bir dağ başında..."

Ha fikirləşdimsə, bir qərara gələ bilmədiyimdən, sifarişimi saxladım sonraya...

Yaxşı, sifariş demişkən, "sifarişi" başa düşdüm, sərgilənən daşların ürəyim hansını istəsə, onu sifariş verəcəyimdən xəbər verir. "Satışı" da, başa düşdüm ki, daşları satanların da çörəyi "daşdan" çıxır. Bax, bu "sərgini" heç cür başa düşə bilmirəm.

Nə isə, sərginin üstündə çox da baş sındırmağa dəyməz, amma öz aramızdı, bir anlıq lap ölməyim gəldi. Orasını da deyim ki, Əzrayıla verəcəyimiz canın da qədrini ona təslim etməmişdən əvvəl, bir azca bilsəydik, heç də pis olmazdı.

***P.S.*** *Məncə, qəbiristanlıqlarda da intizam yaratmağın vaxtıdır.*

# Qaçqın və məcburi köçkünlərin problemləri dövlətin diqqət mərkəzindədir

***Dünyanı bürüyən qaçqın və məcburi köçkün problemləri, artıq fəlakət həddinə çatıb. Sivil dünyanın gözləri qarşısında supergüclərin iqtisadi və siyasi maraqlarına görə, on minlərlə insan yurd-yuvasından didərgin düşərək, Avropa sərhədlərinə axın etməkdədir. Onların bir çoxu da elə yollardaca tələf olub həyata göz yumurlar. Qaçqın və məcburi köçkün həyatı yaşamaq, dünyada hər bir insanın ən məşəqqətli və ən amansız həyat hekayəsidir. Öz yurd-yuvasından didərgin düşmək, ən əziz insanlarını müharibələrdə, amansız döyüşlərdə itirmək, irqindən və milliyyətindən asılı olmayaraq, hər kəs üçün acı taledir. 1988-ci ildən başlayaraq, erməni faşistlərinin amansız və qəddar siyasəti nəticəsində, öz doğma yurd-yuvalarından qaçqın düşən 1 milyondan çox azərbaycanlının acınacaqlı taleyi də, tariximizə qara hərflərlə yazılmış bir alın yazısıdır.***



Yüzlərlə qadın və körpənin qaçqınlıq zamanı erməni faşistləri tərəfindən diri-diri yandırılaraq öldürülməsi, vəhşicəsinə qətlə yetirilməsi, erməni faşizminin əsl iç üzünü dünyaya göstərən, tarixdən silinməyəcək əsas faktlardandır. O zaman, qaçqın və məcburi köçkünlərin problemləri yenicə müstəqillik qazanan Azərbaycan üçün böyük problem idi.

Yeni müstəqillik tarixinin 25 ilini arxada qoyan Azərbaycan, bu müddət ərzində uğurlu inkişaf yolu keçməyi bacarıb. Düzdür, ilk illərdə yaranan çətinliklər və o dönəmdə hakimiyyətdə olanların naşı siyasəti müstəqilliyin üzərindən Domokl qılıncı kimi asılmışdı və əldə edilən bu suverenlik itirilmək təhlükəsi ilə üz-üzə idi. Dağlıq Qarabağ münaqişəsi, bir milyondan artıq qaçqın və məcburi köçkün problemi vəziyyəti daha da ağırlaşdırırdı. Xüsusən də, yurd-yuvalarından didərgin düşənlər üçün bu dövr daha məşəqqətli idi. Amma Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə gəlişi ilə vəziyyət kökündən dəyişdi və bunun real təcəssümünü məcburi köçkünlərin timsalında da aydın görmək olar. Qaçqın və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması, problemlərinin öyrənilməsi və vaxtında həlli, mənzil-məişət şəraitlərinin axşılaşdırılması daim dövlətin xüsusi diqqət mərkəzində saxlanıldı. Doğma yurdlarından didərgin salınmış bir milyon nəfərədək soydaşımız, Ulu Öndərin danılmaz fəaliyyəti nəticəsində, dövlət qayğısı ilə əhatə olundu, onların üzləşdiyi sosial problemlər tədricən öz həllini tapmağa başladı. Ulu Öndər müxtəlif ölkələrin dövlət başçıları, rəsmi şəxsləri ilə keçirilən çoxsaylı görüşlərində, beynəlxalq və yerli qurumlarda etdiyi çıxışlarında mütləq qaçqın və məcburi köçkünlər məsələsinə toxunaraq, bunu ölkənin bir nömrəli problemi adlandırmışdır. Məhz Heydər Əliyevin danılmaz fəaliyyəti sayəsində, 1993-2004-cü illərdə ayrı-ayrı dövlətlər, maliyyə qurumları, beynəlxalq humanitar və inkişaf təşkilatları tərəfindən qaçqın, məcburi köçkün və aztəminatlı əhaliyə müxtəlif layihələr üzrə 640 milyon ABŞ dollarından çox həcmdə humanitar yardım göstərilmişdir. Bir faktı, xüsusi ilə diqqətə çatdırmaq lazımdır ki, Ulu Öndər Heydər Əliyev 1999-cu ildə BMT-nin Ümumdünya Ərzaq Proqramı Təşkilatının Baş Qərargahına müraciət edərək, həmin qurumun Azərbaycanda fəaliyyət müddətinin müstəsna hal kimi, 2005-ci ilin sonuna qədər uzadılmasına nail oldu. 2003-cü ildən Heydər Əliyev siyasi kursunu davam etdirməyə başlayan Prezident İlham Əliyev də bu istiqamətdə ardıcıl və məqsədyönlü işlər görüb. Təsadüfi deyil ki, Prezident İlham Əliyev qaçqın və məcburi köçkünlərin problemlərinin həllini hər an diqqət mərkəzində saxlamış, çadır şəhərcikləri ləğv olunmuş, müxtəlif bölgələrdə məcburi köçkünlər üçün yeni və müasir tipli qəsəbələr inşa olunmuşdur.

Prezident İlham Əliyev bu qəsəbələrin açılışında iştirak edir, məcburi köçkünlərlə görüşür, dövlətimizin bu sahədə həyata keçirdiyi tədbirlərlə bağlı məlumatlar verir. Bu illər ərzində Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu Dövlət Proqramına uyğun olaraq yüzlərlə məcburi köçkün ailəsinin məskunlaşdığı yataqxanaların təmirini həyata keçirmiş, məcburi köçkünlərin məskunlaşdığı yerlərə yollar, su, işıq xətləri çəkmiş, yeni məktəblər, uşaq bağçaları tikilmiş və digər işlər görülmüşdür. Azərbaycan Respublikasının iqtisadi-siyasi gücü artdıqca dövlət bir vaxtlar ən ağır problem olan qaçqın və məcburi köçkünlərin qayğıları ilə daha yüksək səviyyədə məşğul olmağa başladı. Belə ki, əgər 2003-cü ilə qədər bu məsələdə xarici humanitar təşkilatların rolu daha böyük idisə, Prezident İlham Əliyevin hakimiyyəti dövründə Azərbaycan artıq qaçqın və məcburi köçkünlərin bütün problemlərini özü müstəqil surətdə həll edə bilən iqtisadi gücə malik bir ölkəyə çevrildi.

Yuxarıda qeyd etdiyimiz kimi, Ulu Öndər Heydər Əliyevin çadır düşərgələrinin ləğvi ideyası davam etdirilərək, mövcud olan 12 çadır düşərgəsinin 5-i 2003-cü ildə, 7-si isə sonrakı 4 ildə ləğv olunub. 2003-cü il prezident seçkiləri öncəsi "Azərbaycanda bir dənə də olsun çadır düşərgəsinin qalmayacağ"ına söz verən ölkə Prezidenti İlham Əliyev bu vədi 4 ildə yerinə yetirib. 24 dekabr 2007-ci il Azərbaycan tarixinə, həm də son çadır düşərgələrinin ləğvi kimi düşüb.

Ötən illərdə Azərbaycanın dinamik sosial-iqtisadi inkişafı qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün də böyük imkanlar yaradıb, onların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, məşğulluğunun artırılması istiqamətində görülən işlərin miqyası daha da artıb. Prezident İlham Əliyevin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın və sonradan həmin sənədə 31 oktyabr 2007-ci il 21 fevral 2011-ci il tarixli sərəncamlarla təsdiq olunmuş əlavələrin icrasında uğurlu işlər görülüb.

Dövlət indiyədək məcburi köçkünlərə, ümumilikdə, 4,5 milyard dollarlıq vəsait xərcləyib. Bunun 2,6 milyardı dövlət büdcəsi, 1 milyardı Neft Fondunun vəsaiti və 900 milyonu beynəlxalq humanitar təşkilatların payına düşür. Dövlət Neft Fondunun hesabından ilk köçürmələr də, məhz qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilib. Bu vəsaitlə 67 qəsəbə salınıb, 100 min qaçqın və məcburi köçkün oraya köçürülüb.

Prezident İlham Əliyev Masazır qəsəbəsində 760 məcburi köçkün ailəsi üçün yeni salınmış məhəllənin açılış mərasimində açıqladığı fikirlər və görülən işlərin mahiyyətini bir daha aydın şəkildə ortaya çıxarır: "Görülən bütün bu işlər, bir daha onu göstərir ki, məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bu günə qədər 140 min məcburi köçkün yeni evlərə və mənzillərə köçürülmüşdür. Yəni bu, böyük bir işdir, elə bil ki, yeni böyük bir şəhər salınmışdır. Onu da bilməliyik ki, dünyada ən çox qaçqın-köçkünü olan ölkə Azərbaycandır. Azərbaycanın əhalisi artır. Ancaq eyni zamanda, məcburi köçkünlərin də sayı artmaqdadır. 1992-ci ildə onların sayı bir milyon idi, indi isə artıq 1 milyon 100 min, bəlkə də 1 milyon 200 min məcburi köçkün vardır".

Diqqətə çatdırmaq lazımdır ki, son 13 ildə 400 mindən çox qaçqın və məcburi köçkün yeni iş yeri ilə təmin olunub. Hər bir qəsəbədə məktəblər və uşaq bağçaları salınıb. Ali və orta ixtisas təhsili ocaqlarında ödənişli formada təhsil alan qaçqın və məcburi köçkünlər təhsil haqqı ödəməkdən azad olunmuşlar. Bundan başqa, 1990-cı illərin əvvəlində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Ermənistanda aparılan etnik təmizləmə, Azərbaycanın 20 faiz ərazisinin işğalı insanların öz doğma yurdlarından didərgin düşmələrinə səbəb olub və bu münaqişə hələ də öz həllini tapmayıb. Bu işğal nəticəsində yaşayış məskənləri, sosial infrastruktur, tarixi, mədəni abidələr, bir sözlə hər şey dağıdılıb, ölkə iqtisadiyyatına külli miqdarda - təxmini hesablamalara görə 500 milyard ABŞ dollarından çox həcmdə ziyan vurulub və insanlar hər şeylərini itiriblər. Sözsüz ki, ən böyük itki müharibədə həyatlarını itirmiş 30 min nəfərədək Azərbaycan vətəndaşıdır.

Bu fakt, artıq bütün dünya ictimaiyyətinə məlumdur ki, Azərbaycan 20 ildən çox müddət ərzində, təbii artım hesabına sayı bir milyon 200 mini keçən qaçqın və məcburi köçkünün əsas problemlərini həll edib, beynəlxalq hüquq normalarına hörmətlə yanaşıb, götürdüyü öhdəlikləri layiqincə yerinə yetirib. Dövlət Neft Fondunun vəsaiti hesabına müasir standartlara cavab verən 95 yaşayış qəsəbəsi salınıb, 50 min ailə 250 min nəfərdən çox qaçqın və məcburi köçkün yeni mənzillərlə təmin olunub. İndiyədək onların sosial problemlərinin həllinə təxminən 6 milyard ABŞ dolları həcmində vəsait xərclənib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva yeni vəzifədə ilk iclası da bu həssas problemə həsr etdi. Daha sonra o, Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr olunmuş müşavirə keçirdi. Birinci vitse-prezident Mehriban Əliyeva həmin müşavirədə çıxışında, bir daha diqqətə çatdırdı ki, qaçqınlara və məcburi köçkünlərə qayğı Azərbaycan dövlətinin fəaliyyətinin ən prioritet istiqamətlərindən biridir: "Gördüyümüz bu təqdimat, bir daha sübut edir ki, qaçqınlara və məcburi köçkünlərə qayğı Azərbaycan dövlətinin fəaliyyətinin ən prioritet istiqamətlərindən biridir. Müstəqilliyimiz bərpa olunandan sonra ən ağır dövrlərdə, ölkəmizin inkişafının bütün mərhələlərində bu sahəyə dövlət tərəfindən böyük qayğı göstərilib. Amma eyni zamanda, əfsuslar olsun ki, bu sahədə hələ də problemlər var. Ona görə bizim qarşımızda belə bir məqsəd durur ki, çox qısa zamanda bu problemləri aradan qaldıraq və yararsız vəziyyətdə olan bütün təhlükəli binalarda yaşayan soydaşlarımızı yeni mənzillərlə təmin edək".

Qaçqın və məcburi köçkünlərin Prezident İlham Əliyevin həyata keçirdiyi qətiyyətli siyasətin məntiqi nəticəsi olaraq, tezliklə öz doğma torpaqlarına qayıdacaqlarına, Azərbaycanın ərazi bütövlüyünün bərpa ediləcəyinə inamları daha da artıb. Doğma yurd-yuvalarından didərgin düşmüş insanlar üçün salınan qəsəbələr, tikilən evlər qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşmasına xidmət etsə də, onlar bu ünvanlarda müvəqqəti məskunlaşdıqlarını, tezliklə ata-baba torpaqlarına qayıdacaqlarına əmindirlər. İşğal altındakı ərazilər azad olunduqdan sonra onlar bu yerlərdə dövlətin yardımı ilə daha təmtəraqlı və yüksək şəraiti olan evlər inşa olunacağını yaxşı bilirlər. Azərbaycan Prezidentinin ətrafında daha sıx birləşən qaçqın və məcburi köçkünlərin özləri də zəbt olunmuş doğma torpaqlarının azad edilməsi üçün Ali Baş Komandanın döyüş əmrini yerinə yetirməyə hazırdırlar.

***Məzahir AŞİROV***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün*

# Rəsul Quliyev və Hüseyn Abdullayev kimi sabiqlərin namizədlik iddiaları gülüncdür

***Seçki ərəfəsində siyasi partiyalar, qurumlar öz konsepsiyası üzərində çalışmalı, seçkilərə hazırlaşmalı olduqları halda dağıdıcı müxalifət düşərgəsində bir-birinə qarşı yönələn təhqirlə müşayiət olunan qalmaqallar müşahidə edilir. Təbii ki, konsepsiyası, proqramı, ümumiyyətlə, heç bir əməli fəaliyyəti olmayanların seçkiqabağı mübarizəsi qalmaqallar müstəvisindən kənara çıxa bilməz.***

İki mühacir - Rəsul Quliyev və sabiq deputat Hüseyn Abdullayev arasında gərginlik hökm sürür. Gərginliyə səbəb isə mühacirlərin bir-birinin ünvanına səsləndirdiyi təhqirlər və qeyri-etik ifadələrdir. Tərəflər bir-birini seçkilərdə namizədliyə belə layiq olmamaqda ittiham edir və yalnız bu baxımdan haqlıdırlar. Əvvəla, ona görə ki, biri digərinin kimliyini, yəni hətta vətəndaş kimi mənəvi haqqının olmadığını yaxşı bilir. Digər tərəfdən, mühacirlər bir-birinin xəyanətkar, rüşvətxor, uyğunsuz fəaliyyətinə, ictimaiyyət arasında zərrə qədər nüfuzunun olmamasından məlumatlıdır.

R.Quliyev H.Abdullayev də prezidentlik potensialını görmədiyini bildirib. Öz videomüsahibəsində onu heç tanımadığını da deməklə, R.Quliyev Abdullayevi başqalarının əsərlərindən oğurlayıb musiqi kompozisiyaları yaratmaqla özünü böyük bəstəkar hesab edən müştəbeh hesab etdiyini gizlətmir. Eks-spiker qarşı tərəfə, ancaq tərbiyəsizliklə diqqəti cəlb edə bilər və xəmiri tərbiyəsizliklə yoğrulub deyərək, təhqirlər ünvanlayıb və onu xalqa bir qəpiklik xeyri dəyməyən adam kimi xarakterizə edib.

H.Abdullayev isə, öz növbəsində, R.Quliyevin ittihamlarına, “sən haranın itisən” kimi təhqirlə cavab verərək, onu boşboğazlıq edən şəxs, tarixin zibilliyinə atılmış siyasi boşluq adlandırıb.

### “Kor kora kor deməsə, bağrı çatlar”

Bəllidir ki, hər iki mühacir barəsində Azərbaycanda cinayət məcəlləsinin müvafiq maddələri ilə cinayət işi açılıb və barələrində həbs qərarı verilib. Hər biri qanun qarşısında cavab verməlidir və bu cavabdehlikdən qorxub yayınaraq ölkəni tərk etdikləri, mühacir həyatı seçdikləri reallıqdır. Hər ikisi cinayətkar və qorxaq olduğu həqiqətdir. Bunu hər kəs bilir və onları qınamaqda hər kəs haqlıdır. Amma maraqlıdır, bir vaxtlar cinayətkar əməllər törətməkdə təqsirli bilinərək barələrində cinayət işi açılan hər iki şəxs, əməllərinə görə qanun və ədalət qarşısında cavab verməli olduqlarından qorxub, Azərbacandan qaçdıqları halda, biri digərini hansı üzlə ittiham edir? Eyni ittihamlarla təqsirli bilinənlər biri-birini hansı haqla günahlandırır? “Kor kora kor deməsə, bağrı çatlar” aforizmi belədə lap yerinə düşür. Bu ünsürlərin hər biri, öz növbəsində, cinayət əməlinə görə məsuliyyətdən boyun qaçıran və ölkədən qaçan qorxaqlardır və birinin digərini, bu mənada, ittiham etməsi çox gülünc səslənir. Sanki hər biri öz adını başqasına qoymuş kimi görünür.



R.Quliyev və H.Abdullayev xalqdan və dövlətdən oğurladıqları pullar hesabına hələ də xarici ölkədə yaşayırlar. Abdullayev çox yaxşı bilir ki, Quliyevin topladığı vəsait ona ata-babasından miras qalmayıb. Neft Emalı Zavodunda direktor olduğu müddətdə bu ölkənin, bu torpağın yeraltı sərvətlərindən gələn gəlirləri, bir sözlə xalqın pullarını mənimsəməklə büdcəsini dolduran keçmiş zavod direktoru bununla da kifayətlənmədi. Spiker olduğu dövrdə rüşvətxorluq, korrupsiya yolu ilə əldə etdiyi vəsaitləri də öz büdcəsinə qatıb, ölkəni tərk etdi və bir sözlə, aradan çıxdı. İndi onu dingildədən də həmin vəsaitlər, bir sözlə, bu xalqın pullarıdır ki, bu avantürist bu pullar hesabına hakimiyyət iddiasına düşüb.

2012-ci ildən Almaniyada mühacir həyatı yaşayan keçmiş deputatın da iqtisadi məzmunlu cinayət işləri var. Ona qarşı Cinayət Məcəlləsinin 213.2.2 (külli miqdarda vergidən yayınma) maddəsi ilə cinayət işi qaldırılıb. 2007-ci ilin martında Milli Məclisin iclaslarından birində, hökumətin illik hesabatı zamanı Hüseyn Abdullayevlə digər deputat, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı arasında əlbəyaxa dava və həmin hadisədən sonra H.Abdullayevin deputat mandatının geri alınması, özünün isə həbs olunması, ardınca məhkəmənin onun 2 il müddətində azadlıqdan məhrum edilməsi ilə bağlı qərarı barədə R.Quliyev yetərincə məlumatlıdır. Məhz elə buna görə də, eks-spiker də qarşı tərəfi ittiham etməkdən çəkinmir və onun da namizəd kimi seçkilərdə iştirakını mümkünsüz hesab edərək, tanımıram deməklə saymazlığını da gizlətmir. Bəlli olduğu kimi, R.Quliyev artıq 21 ildir xarici dövlətdə yaşayır. Hüseyn Abdullayev isə 2012-ci ildən Azərbaycanda yaşamır. Gələn il onun ölkə xaricində yaşamasının müddəti 6 il olacaq. 5 ildən artıq müddətdə ölkə xaricində yaşamaları seçki komissiyalarının onların müraciətinə mənfi cavab verməsi üçün əsas yarada bilər.

Göründüyü kimi, iddiaları öz çəkilərindən böyük olan mühacirlərin, əslində, heç bir seçki hüququ belə yoxdur. Yəni pafoslu çıxışlarla hay-küy salan bu sabiqlərin seçkidə namizədlik irəli sürmək kimi hüququ belə olmadığı halda müştəbehlikləri çox gülüncdür. Hətta namizədlik irəli sürmələrinin hüquqa zidd olduğunun bilərəkdən belə səs-küy salmaları, özlərini layiqli namizəd kimi sırımaq cəhdləri, ələlxüsus, uğur qazanacaqları kimi xülyaları kəm ağılın təzahürüdür. Belə qüsurlu insanların seçkilərdə iştirakında, nəinki qanunvericilik, hətta ictimaiyyət, xalq özü belə imkan verməz.

***İnam HACIYEV***

# AXCP möhüründən məhrum edilib

## *Əli Kərimlinin hay-küy qaldırıb, vay-şivən qurması da möhürü geri qaytarmağa hesablanıb*

Müxalifətdaxili durum son vaxtlar daha kritik və amansız xarakter almağa başlayıb. Bunun bir səbəbi prezident seçkilərinin keçirilməsi ilə bağlı qərarın verilməsidirsə, digər səbəbi də xarici təşkilatların öz əlaltılarından imtina etməyə işarə vuran mesajlar ünvanlamalarıdır. Təbii ki, bu da müxalifət partiyaları daxilində, onsuz da ziddiyyətli olan münasibətlərin daha da gərginləşməsinə gətirib çıxarıb. Hər bir partiya funksioneri üzləşdiyi arzuolunmaz vəziyyətə görə digərini günahlandırırlar. Hətta ötən gün Müsavat partiyasının divan üzvü Aliya Yaqublu başqan Arif Hacılını daxili intriqalar yaratmaqda və bölücülükdə günahlandıraraq, bu partiyanın perspektivinin olmadığını bildirib. Divan üzvü sosial şəbəkədə Müsavatda qalıb-qalmamaq məsələsi ilə bağlı fikirləşəcəyinə dair eyham xarakterli status paylaşıb. Bəziləri A.Yaqublunun qəzəbli od püskürməsini yaxın qohumu Tofiq Yaqublunun A.Hacılının qardaşları Vaqif və Mustafa Hacıbəylilər tərəfindən sıxışdırılması ilə əlaqələndirirlər. Bu, bir səbəb olsa da, digər ciddi məsələ isə A.Yaqublunun 3 aya yaxındır ki, partiyadan aylıq maaşını ala bilməməsidir. Perspektivdə də ümidverici nəsə görünmədiyindən, divan üzvü etiraz səsini qaldırmağa başlayıb. Düzdür, ola bilsin ki, etirazı yatırmaq üçün A.Hacılı öz maliyyə imkanları hesabına narazı şəxsləri sakitləşdirə bilsin. Ancaq bu yardım uzunmüddətli olmayacaq. Çünki xaricdən maliyyə dəstəyi olmadığından, A.Hacılı davamlı şəkildə öz daxili imkanları hesabına problemin həllinə nail ola bilməyəcək. Sonda narazılar Müsavatı tərk edəcəklər.

### AXCP-də vəziyyət daha ağırdır

Araşdırmalara və proseslərə əsasən, demək olar ki, ağır daxili ziddiyyətlərlə yanaşı, maliyyə problemlərinin də mövcudluğu daha çox AXCP-də müşahidə olunur. Əli Kərimli may-iyun aylarında maliyyə və digər problemlərini həll edə biləcəyinə ümid bəsləsə də, ümidləri seçkilərin keçirilməsi ilə bağlı verilən qərarla alt-üst edildi. Yəni xarici maraqlı qüvvələr may ayından oktyabr ayına qədər müəyyən qədər maliyyə vəsaiti ayıracaqdı ki, Ə.Kərimli də həmin vəsaiti öz ehtiyaclarına xərcləmiş olacaqdı. Artıq Ə.Kərimli xarici ağalarının ondan üz döndərdiyini dərk etməyə başlayıb. Bu fikri möhkəmləndirən başlıca amillərdən biri də prezident seçkilərinin keçirilməsi barədə qərarın verilməsindən sonra Azərbaycana gələn xarici rəsmi qonaqların onunla görüşdən imtina etməsidir. ABŞ dövlət katibinin müavininin köməkçisinin Azərbaycana səfəri zamanı yalnız müxalifət düşərgəsində Müsavatın keçmiş başqanı İsa Qəmbərlə görüşməsi, o anlamı yaradır ki, Ə.Kərimli xarici dairələr üçün arzuolunmaz şəxsə çevrilib. Bu cür ciddi problemlə yanaşı, Ə.Kərimlinin AXCP-nin möhüründən də məhrum olması, o deməkdir ki, “Yurd” şefini ciddi təlatümlər gözləyir.

### Razi Nurullayevin AXCP sədri kimi tanınması məsələsi reallaşa bilər

AXCP-dəki ciddi mənbənin bizə verdiyi məlumata görə, 2015-ci ildə keçirilən Razi Nurullayevin rəhbərlik etdiyi AXCP-nin qurultayından sonra Ədliyyə Nazirliyi hansı tərəfin əsl AXCP olması ilə bağlı araşdırmalara başlayıb. Bu zaman R.Nurullayevin qurultay materiallarını və sənədlərini, eləcə də, müəyyən məlumatları Ədliyyə Nazirliyinə təqdim etməsi, Ə.Kərimlinin AXCP sədri kimi tanınması məsələsində ciddi suallar yaradıb. Bu suallara aydınlıq gətirilənə qədər AXCP-nin möhürünün Ə.Kərimlidən alınması məsələsi qaldırılıb. Mənbəmizin dediyinə görə, zəng edib Ə.Kərimlidən möhürü araşdırmalar sona çatana qədər təhvil verilməsi tələb olunub. Konkret arqumentlər və faktlar qarşısında aciz qalan Ə.Kərimli AXCP-nin möhürünü Ədliyyə Nazirliyinə təhvil verməli olub. Məsələyə Ədliyyə Nazirliyinin mövqeyini öyrənmək cəhdimiz baş tutmadı. Bununla belə, məsələni diqqətdə saxlayır və rəsmi mövqe əldə edən kimi möhür məsələsinə aydınlıq gətirməyə çalışacağıq.

Mövzuya aidiyyəti olan bir məsələni qeyd etmək yerinə düşərdi ki, Ə.Kərimli prezident seçkilərinə qatılmamaqla, onsuz da ağır olan durumunu daha dərinləşdirmiş olur. Çünki xarici qaranlıq dairələr öz məkrli planlarını reallaşdırmaq üçün seçkiyə qatılan başqa bir müxalifətçi ilə əməkdaşlıq edəcəklər. Yəni Müsavatın keçmiş başqanı İsa Qəmbərlə. Artıq bəlli olduğu kimi, İ.Qəmbər seçkilərə qatılmaq barədə qərar verib. Xarici maraqlı qüvvələr üçün İ.Qəmbər və ya Ə.Kərimli, fərq etməz. Əsas odur ki, seçki prosesi ilə bağlı pozucu planlarının həyata keçirilməsində vasitəçi olsun. Ə.Kərimlinin vəziyyətini ağırlaşdıran daha bir məqam isə, alternativ AXCP-nin sədri R.Nurullayevin prezident seçkilərinə qatılacağı barədə mövqe ifadə etməsidir. Bu, onu deməyə əsas verir ki, Azərbaycanın rəsmi qurumları rəsmi AXCP sədrinin kim olması barədə suallara cavab axtararkən, R.Nurullayev üzərində dayana bilərlər. Xarici fondlar və ya təşkilatlar da R.Nurullayevin məsələsində tərəddüdlərdən əl çəkib, onunla əməkdaşlıq edərlər. Bu, gözlənilən proseslərdir. Məsələlərə yəqin ki, yaxın günlərdə tam aydınlıq gətiriləcək.

***İ.ƏLİYEV***

# Azadlıq hüququnun əxlaqi mahiyyəti

***Azadlıq hüququnun əxlaqiliyi xüsusi istiqamət təşkil edir. Liberal düşüncə tərzinə əsaslanan müasir sivil cəmiyyətlərdə insanın hüquq və azadlıqlarının müdafiə olunması və inkişaf etdirilməsi, başlıca məqsəd rolunu oynayır. Bununla əlaqədar olaraq, azadlıq hüququnun məzmununda əxlaqın yeri və rolunun açıqlanması, azadlığın inkişafı baxımından, mənalandırılmasının zəruriliyi daha aydın görünür. Azadlıq hüququ yarandığı gündən əxlaq ilə ayrılmaz əlaqədə çıxış edir.***

Fəlsəfə elmləri doktoru Qərib Allahverdiyev yazır: "Əxlaq normaları və əxlaqi şüur xeyir, şər, ədalət, borc, vicdan, şərəf, ləyaqət, xoşbəxtlik və həyatın mənası kimi kateqoriyalarda ifadə olunur. Hüquq ilə müqayisədə bu normaların tətbiq olunduğu sahələr daha geniş olub, özündə həm də dostluq, yoldaşlıq, sevgi və sair intim münasibətləri əhatə edir. Bundan əlavə, əxlaq normaları hüquqdan fərqli olaraq, insanın davranışları üçün daha böyük diapazon müəyyənləşdirir, yəni onun mümkün olan hədlərini geniş miqyasda götürür. Qeyd olunan səciyyəvi cəhətlərə malik olduğu üçün əxlaq, sosial normaların digər növləri (o cümlədən də, hüquqi) içərisində insanın daxili mənəviyyatına, bilavasitə yaxın olması ilə seçilir. Sözügedən keyfiyyət ictimai şüurun normativ sistemi kimi çıxış edən əxlaqa müəyyən universallıq verir. Belə ki, digər ictimai şüur formaları, (xüsusilə də, normativ xarakterli) öz funksiyalarını yerinə yetirərkən, həm də əxlaqi meyarlara arxalanmalı olurlar. Qeyd olunan məqam nə qədər çox olursa, həmin şüur formasının azadlıq ilə yaxınlığı da bir o qədər artır. Bu onunla şərtlənir ki, ictimai şüur formaları sırasında, məhz əxlaq öz təbiəti və mahiyyətinə görə azadlığı daha çox ifadə edir. Sözügedən məqam əxlaqın hüquq normaları ilə münasibətlərində daha qabarıq özünü göstərir və ümumilikdə, hüququn əxlaqiliyi probleminin məzmununu ifadə edir."

Azadlıq hüququnun əsas məzmununu təşkil edən hisslər, vərdişlər və ənənələr, şəxsiyyətlərarası münasibətlər ədalətlilik və ədalətsizlik mövqeyindən qiymətləndirilir, şəxsiyyətin bu baxımdan azad və ya qeyri-azad olduğu nəzərə çarpdırılır. Bu səviyyədə hüququn əxlaqilik keyfiyyətinin azadlıq ilə münasibətləri adi gündəlik həyat təcrübəsi hüquqları daxilində cərəyan edir. Hüququn əxlaqiliyi artır, onun azadlığa müsbət təsiri də güclənir. Azadlıq hüququ ilə əxlaqın vəhdəti daha da möhkəmlənir. Bu proses onların hər ikisinin insanın vahid və bütöv mənəvi həyatının üzvi əlaqəli tərəfləri olduğunun sübut etməklə, azadlığa stimullaşdırıcı təsir göstərir. Hüquq ilə əxlaq, faktiki olaraq, sosial münasibətlərdə xeyirxahlığın, borcun və vicdanın əsas yer tutmasına çalışır. Yeganə fərq bundadır ki, hüquq həmin funksiyanı məcburi sanksiyalar vasitəsilə, əxlaq isə daxili tələbatın nəticəsi kimi və mənəvi qınağın gücü ilə reallaşdırır. Onların hər ikisinin ümumi məqsədi insanları azad inkişaf etdirmək və ümumi rifaha gətirib çatdırmaqdır. Burada azadlıq onda təzahür edir ki, əxlaqi cəhətdən tərbiyəli və yetkin fərd, seçim edərkən, öz daxili tələbatına çevrilmiş mənəvi borcdan çıxış edir.

Hüquqi şüurda həyata keçirilməsi vacib olan və ədalətli hesab olunan normalar dövlət qanunu səviyyəsində çıxış edir (yəni onlar pozulduqda məcburi sanksiya tətbiq edilir). Əxlaqi şüurda isə, bu keyfiyyət və qiymətləndirmə insanın mənəviyyatına əsaslanır. Qeyd olunan məqam hüquq ilə azadlığın münasibətlərinə də aid edilməlidir. Doğrudur, sivil cəmiyyətdə hüquq normaları, insanların azadlığının mühüm təminatçısı rolunu oynayır. Bununla yanaşı, nəzərə alınmalıdır ki, hüquqi normaların verdiyi azadlıqlar daha çox zahiri xarakter daşıyır, yəni insandan kənardadır və onun daxili aləmi ilə, bilavasitə əlaqəli deyildir. Bundan fərqli olaraq, insanın əxlaq normaları ilə təmin olunan azadlığı, onun daxili mənəvi kamilliyi ilə daha sıx bağlı olduğundan, xüsusi önəmə malikdir. Buradan, bir daha aydın olur ki, hüququn əxlaqiliyi son dərəcə zəruridir. Qeyd etmək lazımdır ki, hüquq normaları güclü məcburetmə təsirinə malik olsalar da, bu təsirin imkanları hüdudsuz deyildir. Buna görə də, əsas məsələ təkcə məcburiyyətə əsaslanmaqda deyildir. İnsanlarda, onların davranış və hərəkətlərini tənzim edən normalara dərin daxili inam yaratmaq tələb olunur. Bu vəzifənin həlli isə hüququn əxlaqilik səviyyəsindən çox asılıdır. Belə ki, hüquq normalarının əxlaqiliyi, faktiki olaraq, onları məcburi qaydada yerinə yetirilməli olan göstərişlər çərçivəsindən kənara çıxarır. Bu məqam, ona görə böyük əhəmiyyətə malikdir ki, qeyd olunan prosesdə məcburi normalar insanın daxili mənəviyyatına hopur, fərdin subyektiv aləminin daxili yaşantıları kimi dərk olunur. Nəticədə, onların yerinə yetirilməsi, sadəcə, məcburiyyət kimi deyil, azadlıqla bağlı olan könüllülükdən irəli gələn mənəvi zərurət və borc kimi çıxış edir. Bu keyfiyyət, yəni normanın kənar qüvvə tərəfindən təlqin edilməyərək, insanın öz daxili düşüncə səviyyəsindən keçərək hasil olması, fərdin konkret situasiyada, sözün əsl mənasında, azad davranışına çox güclü müsbət təsir göstərir. Əxlaq hüquq ilə müqayisədə insanın daxili mənəvi həyatına yaxın olduğundan, hüquqda əxlaqi tərəfin çoxalması, insanların sosial tənzimetmə mexanizmində mühüm yenilik yaradır. Həmin yeniliyin mahiyyəti bunda təzahür edir ki, davranış və hərəkətin xarici amilləri (hüquq, başlıca olaraq, bu mövqedən çıxış edir) ilə daxili mənəvi keyfiyyətlərinin (bu əxlaqda daha geniş tutur) bir növ inteqrasiyası baş verir. Qeyd olunan cəhət mühüm əhəmiyyət kəsb edir. Belə ki, insanın azadlığının təmin olunması, yəni azad seçim və qərar qəbul etməsi üçün təkcə kənar (xarici) tənzimləmə kifayət deyildir. Əsl azadlıq, subyektin özünü daxili mənəvi tənzimləməsini tələb edir. Yalnız belə olduqda, insanın davranış və hərəkətlərinin tənzim olunması ilə öz-özünü tənzimləməsi üzvü surətdə qovuşur. Bunun nəticəsində, insanın fəaliyyətinin hüdudları, ona qoyulan qadağalar ciddi surətdə yeniləşir. Burada fərdi aktivliyin və azadlığın təsir dairəsi çoxalır, hüquqi məcburiyyətin xüsusi çəkisi azalır. Göstərilən məqam hüquqda və əxlaqda, xüsusilə də, onların qovuşuq halı olan yeni keyfiyyətdə (hüququn əxlaqiliyində) azadlığın çoxalmasını şərtləndirir.

Hüququn əxlaqiliyinin azadlığa təsiri mexanizmini təhlil edərkən, onun yalnız bir istiqamətdə baş verdiyini iddia etmək doğru olmazdı. Başqa sözlə deyilsə, məsələni təkcə hüquq normalarının əxlaqi məzmun kəsb etdiyi kimi təsəvvür etmək birtərəfli olardı. Əslində, bu prosesin əks istiqaməti də özünü göstərir: sivil cəmiyyətlərdə həm də əxlaq normaları, sözün müəyyən mənasında, hüquq normaları və standartları ilə ölçülür. Bu, o deməkdir ki, bəzən əxlaqi cəhətdən bəraət qazandırılan və ya qınaq obyektinə çevrilən məsələnin həllində hüquqi şüurun və hüquqi düşüncənin "müdaxiləsinə" ehtiyac yaranır. Belə olduqda, problem həm də hüquq müstəvisində dəyərləndirilir. Qeyd olunan məqamda da fərdin hüquq və azadlıqlarının vəhdəti əsas meyar rolunu oynayır.

Fəlsəfə elmləri doktoru Qərib Allahverdiyev yazır:" Buradan bir daha aydın olur ki, hüququn əxlaqiliyi, konkret hansı yol ilə getməsindən asılı olmayaraq, öz mahiyyətinə görə azadlığın inkişafına müsbət təsir göstərir. Deməli, əxlaq və onun şəxsiyyətin davranışına tənzimedici təsiri müxtəlif istiqamətlərdə özünü göstərən mürəkkəb prosesdir. Sözügedən təsirin məğzini fərdin konkret situasiyada azad seçiminə açdığı imkanların genişlik səviyyəsi təşkil edir. Başqa sözlə deyilsə, fərdin fəaliyyət və davranışında hüququn əxlaqiliyi nə qədər çoxdursa, onun azad seçim imkanları və ümumilikdə, azadlığı da bir o qədər artıq olur. Məsuliyyət artdıqca, onun azadlığa tənzimləyici təsiri də güclənir. Bəzən belə yanlış təsəvvürlərə rast gəlinir ki, hüquqda əxlaqiliyin cüzi, minimum səviyyədə olması və yaxud konkret bir məsələyə münasibətdə özünü göstərməsi kifayətdir. Fikrimizcə, bu qəbildən olan iddialara haqq qazandırmaq olmaz. Əxlaq ayrılıqda fərdin və bütövlükdə, cəmiyyətin sosial mahiyyətinin başlıca tənzimedici və ifadəsi olduğundan, digər sosial normaların, o cümlədən də, hüququn ictimai həyatda öz funksiyasını yerinə yetirməsi, onlarda əxlaqi məzmunun səviyyəsindən xeyli dərəcə asılıdır. Bununla əlaqədar, qeyd edək ki, müasir Qərb dünyasında rasionalist düşüncəyə və maddi dəyərlərə üstünlük verilməsi və mənəvi-əxlaqi göstəricilərin lazımi dərəcədə qiymətləndirilməməsi, onun mənəvi böhranının başlıca səbəblərindəndir."

Hüquq ilə müqayisədə əxlaqda fərdi-mənəvi tərəf daha üstün olduğundan, onun qaydaları və normaları yüksək mənəvi dəyərləri ifadə edir. Bu cəhət müasir dövrdə yaranan əxlaq nəzəriyyələrində əhəmiyyətli yer tutmaqdadır. Bununla yanaşı, yeni baxışlar xüsusi zərurət olmadığı hallarda, insan azadlıqlarının məhdudlaşdırılmasını məqbul hesab etmir, əksinə, əxlaqi azadlığın hüdudlarının dəqiqləşdirilməsini və məzlum vəziyyətində olan azlıqların hüquqlarının müdafiə olunmasını irəli sürür. Hüququn əxlaqiliyi insanın digər insanlara, vətəninə və xalqına münasibəti ilə bağlı fəaliyyətində seçim və qərar qəbul etməsində daha aydın görünür. Lakin o, bununla məhdudlaşmır, həm də şəxsiyyətin öz-özünə olan münasibətlərində təzahür edir. Bu, onunla izah edilir ki, normal cəmiyyət, öz üzvlərinin taleyinə biganə qala bilməz. Hətta bu və ya digər fərd müəyyən səbəblər üzündən öz azadlığına və həyatına qəsd etmək qərarına gələrək, intihar etdikdə də, cəmiyyət (din də) bu hərəkəti pisləyir, onu törədən şəxs mənəvi qınaq obyektinə çevrilir.

Azadlıq hüququnun əxlaqiliyi artdıqca, fərdin fəzilətə (xeyirxahlığa) və qəbahətə (şərə) etinasız münasibətinin qeyri-mümkünlüyü daha aydın üzə çıxır. Belə ki, o, tədricən anlayır ki, analoji hərəkət etməyə onun mənəvi cəhətdən hüququ yoxdur. Nəticədə, onun öz davranış və hərəkətlərinə görə vicdanı və bütövlükdə, cəmiyyət qarşısında mənəvi məsuliyyəti çoxalır. Sonuncu anlayış isə, insanın azadlığından ayrılmazdır. Hüquqda əxlaqilik və mənəvilik nə qədər geniş yer tutarsa, insanın cəmiyyətdəki mövqeyində, yerinə yetirdiyi rolda və ümumi fəaliyyətində iradə azadlığı və azad seçim imkanları daha da artır. Hər bir fərd cəmiyyətdə təkbaşına yaşamır, digər insanlarla ünsiyyətdə və qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Bu məqam, onun öz maraqlarını ümumi maraqlar ilə uzlaşdırmasını, insanlarla münasibətlərdə müəyyən öhdəliklər yerinə yetirməsini tələb edir. Hüquq və əxlaq bu qəbildən olan borcluluq münasibətlərinin reallaşdırılmasını tənzim edən iki sıx əlaqəli formadır. Qeyd etmək lazımdır ki, hüququn əxlaqi xarakterinin azadlığa real təsiri prosesi əlahiddə baş verir, mövcud cəmiyyətin sosiomədəni amilləri ilə birlikdə çıxış edir. Bu münasibətdə əhalinin mədəni səviyyəsi göstəriciləri çox mühüm rol oynayır.

**Vahid ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## ŞOK: Hər 6,5 saniyədə bir nəfər siqaretdən ölür



9 fevral - Dünya Siqareti Tərgitmə günüdür. Bu münasibətlə danışan türkiyəli professor Nazmi Bilir siqaret asılılığının sağala biləcək bir xəstəlik olduğunu açıqlayıb. Siqareti tərgidə bilmirsinizsə, bu "iradəsizlik" deyil, sadəcə bədən nikotinə olan tələbatının ödənilməsini istəyir. Professor həmçinin qeyd edib ki, siqaret asılılığı insanlarda ağciyər xərçəngi, ürək xəstəlikləri və digər bu kimi onlarla xəstəliyə yol açır. Hər il dünyada 7 milyon insan siqaretdən ölür və bunun da 900 mini passiv siqaret çəkənlərdir. Hər gün 14 min nəfər və ya hər 6,5 saniyədə bir nəfər siqaret asılılığı üzündən həyata əlvida deyir. Bilirin sözlərinə görə, siqareti tərgitməyin ən əsas yolu bu barədə qərarlı olmaqdır.

## XƏBƏRDARLIQ: Həyəcan və stress bu xəstəliyə səbəb olur!



Son vaxtlar cəmiyyətdə yaddaşsızlıqdan şikayət edənlərin sayı artır. Yaddaş pozğunluğu problemlərindən biri də yaddaşın keçici olaraq itməsidir (Transient Global Amneziya). Bu, ani olaraq ortaya çıxan (bir neçə dəqiqədən başlayaraq) və 24 saatdan qısa müddətdə düzələn bir haldır.

Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının nevroloqu, tibb elmləri üzrə fəlsəfə doktoru Nuridə Tağıyeva bu halın yaranma səbəblərinə aydınlıq gətirib. Onun sözlərinə görə, ağır fiziki iş, həyəcan, güclü stress, anidən soyuq suya düşmək, bəzi dərmanların istifadəsi kimi faktorlar yaddaşın keçici olaraq itməsinə səbəb ola bilir.

"Pasient bu hal zamanı oyanıq olur, iflic və ya tək tərəfli uyuşma kimi başqa bir əlamətləri olmur. Xəstələrin huşu itməsə də "dəli" kimi olular. Çox vaxt ətraflarında insanlar olduqda - Haradayam? Sən kimsən? kimi sualları təkrar-təkrar soruşurlar. Bu zaman həmin insanlar etdikləri işi davam etdirə, məsələn, avtomobil idarə edə və ya yemək bişirə bilərlər. Bu əlamətlər hər kəsdə rast gəlinə bilər. Kişilərdə və 60 yaşdan yuxarı insanlarda da bu hal müşahidə edilir. Bu, beynin gicgah payının funksiyasının keçici olaraq pozulmasından qaynaqlanır. Xüsusi müayinə metodları ilə aparılan tədqiqatlar zamanı həmin an bu bölgənin fəaliyyətinin azaldığını aşkar ediblər. Bu hal epilepsiya, miqren, ürək xəstəlikləri ilə də qarışa bilir".

Nevroloq vurğulayıb ki, bu tərz şikayətləri olan insanlar mütləq həkim nəzarəti altında olmalıdırlar: "Onlar xüsusi şəkildə müayinə olunmalı və müvafiq müalicə almalıdırlar. Bu halı yaşamış insan qısa müddətdən sonra tamamilə düzəlsə də, mütləq nevroloq-həkimə müraciət etməlidir. Çünki, bu əlamətlər son dərəcə önəmli bir xəbərdaredici haldır".

## "Təxti Kuboku"nda sərbəst güləşçilərimiz 4 bürünc medal qazanıblar

Təbrizdə böyüklər arasında sərbəst güləş üzrə ənənəvi "Təxti Kuboku" beynəlxalq turniri keçirilib. Azərbaycan Güləş Federasiyasının məlumatına görə, 23 ölkədən 190-a yaxın idmançının iştirak etdiyi turnirdə təmsilçilərimiz də mübarizə aparıblar. Yığmamızın üzvləri turniri 4 bürünc medalla başa vurublar. Coşqun Əzimov (70 kq), Murad Süleymanov (79 kq), Hacımurad Məhəmmədsəidov (86 kq) və Roman Bəkirov (97 kq) fəxri kürsüdə yer alıblar. Görüşlərin idarə edilməsində Azərbaycanı beynəlxalq dərəcəli hakim Babək Allahverdiyev təmsil edib.

## Futbol üzrə dünya çempionatının kuboku Bakıya gətirilib




"Coca-Cola" və AFFA futbol üzrə dünya çempionatının kubokunu fevralın 9-da Azərbaycana gətirib. AZƏRTAC xəbər verir ki, "Coca-Cola" şirkəti dünya çempionatının kubokunu dördüncü dəfə dünya turuna götürür və futbol dünyasının ən ali mükafatını Azərbaycan azarkeşlərinə göstərmək üçün Bakıya gətirib. Kubokun Azərbaycana səfəri "Coca-Cola" şirkətinin bu ölkədə uzunmüddətli tərəfdaşı olan AFFA ilə birgə əməkdaşlığı çərçivəsində təşkil olunub.

Xüsusi təyyarə ilə gətirilən kuboku Fransa millisinin heyətində 1998-ci ilin dünya çempionu Kristian Karambö müşayiət edib. Mükafatı qarşılayanlar arasında AFFA-nın baş katibi Elxan Məmmədov da olub. Baş mükafat Heydər Əliyev Beynəlxalq Hava Limanından "Hilton" otelinə aparılıb. Mətbuat konfransının ardından şəhər sakinləri və qonaqlara nümayiş etdirilməsi üçün kubok "Gənclik Mall" ticarət mərkəzinə aparılacaq. Ötən ilin sentyabrında Rusiyada start götürən tur altı qitədən 50-dən çox ölkəni əhatə edəcək və doqquz ay ərzində 126 min kilometr məsafə qət edən kubok səyahətini futbol üzrə 2018-ci il dünya çempionatında başa vuracaq.

## Naxçıvanlı idmançılar 8 medal qazanıblar



Naxçıvan Muxtar Respublikası Şərq Döyüş Sənəti Federasiyasının yetirmələri Bakı şəhərindəki Hövsan Olimpiya-İdman Kompleksində keçirilən pankration, qrappling və MMA üzrə Bakı şəhər açıq çempionatında 8 medal qazanıblar. 14-15 yaşlı idmançılar arasında Şərq Döyüş Sənəti Federasiyasının yetirməsi Fərid Məhərrəmov həm pankration, həm də qrappling növlərində bütün rəqiblərini məğlub edərək 2 qızıl medal əldə edib. Pankration növündə 12-13 yaşlı idmançıların yarışında mübarizə aparan Mirməhəmməd Seyidov da muxtar respublikaya qızıl medalla qayıdıb. Bu növdə Oğuz Məmmədli (8-9 yaş) bürünc medal qazanıb.

MMA və qrappling idman növlərində isə idmançılarımız 4 medal əldə ediblər. Belə ki, Rəzzaq Əliyev, Fərid Əliyev, Orxan Həsənov və Ayxan Həsənov çempionatın üçüncüsü olublar. Sonda yarışın qaliblərinə müvafiq dərəcəli diplomlar verilib, xatirə hədiyyələri təqdim olunub.

## Voleybolun yaradılmasından 123 il ötür



1895-ci il fevralın 9-da ABŞ-ın Massaçusets ştatının Holyok şəhərində Xristian Gənclər Təşkilatının rəhbəri Uilyam Morqan topla yeni komanda oyunu icad edib. AZƏRTAC xəbər verir ki, U.Morqan basketbol, beysbol və həndbolun elementlərini bir araya gətirmək qərarına gəlib. O, toru tennis oyunundan nümunə götürərək, döşəmədən təqribən 196 santimetr hündürlükdə yerləşdirib. Bu isə həmin dövrün ölçüsünə görə ortaboylu adamdan uca olub. Oyunun mahiyyəti topu torun üzərindən atmaqda idi. İlk vaxtlar oyunçuların sayına məhdudiyyət qoyulmayıb və oyunu "mintonet" adlandırıblar. Bir ildən sonra Massaçusets ştatının Sprinqfild şəhərində Xristian Gənclər İttifaqının konfransında "mintonet" oyununun ictimaiyyət üçün təqdimatı keçirilib. Bu assosiasiya sonralar voleybol oyununun genişlənməsinin fəal təşəbbüskarı olub.

Topu əllə vuraraq tor üzərindən keçirmək oyunun əsas ideyası olduğu üçün professor Alfred Halsted "mintonet" adının ingiliscə "uçan top" mənasını verən "voleybol" sözü ilə əvəzlənməsini təklif edib. 1897-ci ildə mütəxəssislər tərəfindən voleybol oyunu və qaydaları haqqında müxtəsər hesabat Xristian Gənclər Assosiasiyasının atletik liqasının rəsmi sorğu kitabçasına daxil edilib. 1900-cü ildə voleybol ABŞ-ın sərhədlərini aşıb dünyanın müxtəlif ölkələrində yayılıb. Hazırda voleybol Olimpiya idman növüdür.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**